03_27 IYUl-QARA.qxd 1/25/2024 9:34 PM Page 1

UNİKAL

№03 (2185) 26 yanvar 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Azərbaycan Avropa Şurası ilə yollarını ayırır



Səh.3

## Taleh Kazımov Elman Rüstəmovun yolu ilə gedir, yoxsa...

*Azərbaycanda daha bir neçə bankın da bağlanacağına dair yeni iddialar ortaya atılıb. Məsələ burasındadır ki, bəzi sistem əhəmiyyətli banklar son günlər əmanət faizlərini artırsa da, bir neçə bank təklif etdikləri gəlirliliyi azaldıblar.*

*Banklar bunu kreditə yönəldilməyən cəlb edilmiş vəsaitlərə görə əlavə xərclərin yaranması ilə izah edirlər. İddialar bu yöndədir ki, ötən il bir neçə bankın bağlanması ilə bazarda bu prosesin yeni ildə də davam edəcəyi gözləniləndir.*

*Nəticədə vətəndaşlar öz əmanətləri ilə bağlı bank seçimi edərkən problemlərlə üzləşirlər. Xüsusilə axır vaxtlar bəzi bankların əmanət faizlərini azaltması vətəndaşlarda təşvişə səbəb olub. Hazırda aktual səbəblərdən biri budur: depozit faizlərinin endirilməsi həmin banklar üçün "əcəl zəngi"nin çalınmasının göstəricisidirmi?*

Səh.6

## "Monopoliyanın tamamilə aradan qaldırılması bir az problemli görünür"



*REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, Rəqabət Məcəlləsi qüvvəyə mindikdən sonra bunun iqtisadi sahəyə necə təsir edəcəyindən, Məcəllənin monopoliyanın aradan qaldırılmasına təsirlərindən, Prezident seçkilərindən sonra hansı struktur islahatlarının...*

Səh.4

## "Azərbaycan sülh üçün xoşniyyətli danışıqlar aparır" - Hikmət Hacıyev



*"Sərhədin delimitasiyası texniki və vaxt aparan uzun prosesdir, sülh sazişi isə çətin deyil və sadəcə olaraq, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn norma və prinsiplərinin qarşılıqlı şəkildə qəbul olunmasına əsaslanır". "Unikal" xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi...*

Səh.3

## Zəfərlə yoğrulmuş seçim



*İkinci Qarabağ müharibəsinin qələbə ilə yekunlaşması və ölkəmizin süverenliyinin mütləq şəkildə bərqərar olmasından sonra Azərbaycan yeni bir mərhələyə qədəm qoydu. Bu səbəbdən də ölkədə siyasi proseslərin, idarəçiliyin və digər spektrlərdə dəyişikliyin olması üçün zərurət yarandı. Növbədənkənar...*

Səh.5

03_27 IYUI-QARA.qxd 1/25/2024 9:35 PM Page 2



# Prodüser Tarana Səmədovaya hökm oxundu



***Hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən prodüser Təranə Səmədova və onun tanışı Rasim Həsənova hökm oxunub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Təranə Səmədova 6 il, Rasim Həsənov isə 7 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, aparılan istintaq zamanı müəyyən olunub ki, T.Səmədova qeyri-rəsmi ər-arvad kimi yaşadığı R.Həsənovla birgə Altay Səfirovun (ad, soyadı şərtidir) fotoşəkillərini əldə edib.

Daha sonra həmin şəxslər fotoşəkilləri Altayın ailə üzvlərinə göstərməklə, yaşadığı məhəllədə yaymaqla, o, cümlədən instaqram və digər sosial şəbəkələrində yerləşdirməklə hədələyib. Bu yolla T.Səmədovla R.Həsənov ondan 3 min manat tələb edib.

Beləliklə, ötən ilin noyabrında onlar zərərçəkmiş şəxsdən ümumilikdə 1 100 ABŞ dolları məbləğində pulu hədə-qorxu ilə tələb edərək ələ keçiriblər.

Bundan başqa, T.Səmədovla R.Həsənov təkrarən Altay Səfərovu rüsvayedici fotoşəkillərlə şantaj edərək ondan 1 000 manat pul tələb ediblər. Lakin zərərçəkmiş onlara 130 manat pul verib.

Xatırladaq ki, T.Səmədova və R.Həsənov barəsində Cinayət Məcəlləsinin 182.2.1-ci (hədə-qorxu ilə tələb etmə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə ittiham irəli sürülüb, məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Fərmanqızı Flora Kərimovaya 10 min ödəməlidir - Qərar verildi



***Müğənni Afət Fərmanqızı Xalq artisti Flora Kərimovaya 10 min manat ödəyəcək.***

Bu haqda Nərimanov Rayon Məhkəməsi qərar çıxarıb. Flora Kərimova Afət Fərmanqızının onu təhqir etdiyini əsas gətirərək qarşı tərəfin üzr istəməsi və dəymiş mənəvi ziyana görə 100 min manat məbləğində təzminat ödəməsini tələb edirdi.

Xalq artistinin vəkili Xavər İsmayılova deyib ki, hakim Aytən Novruzovanın sədrliyi ilə iki ilə yaxın davam edən məhkəmə bu gün yekunlaşıb.

Ekspert rəyləri də Xalq artistinin iddiasının əsaslı olduğunu göstərib, A.Fərmanqızının sosial şəbəkələrdə iddiaçıya münasibətdə dediklərinin şərəf və ləyaqəti ləkələyən sözlər olduğu sübut edilib. Məhkəmə mülki iddianı qismən təmin edib. Qərara əsasən, cavabdeh Afət Fərmanqızıdan 10 min manat tutularaq iddiaçı Flora Kərimovaya ödənilməlidir.

Qeyd edək ki, Flora Kərimova Afət Fərmanqızını xüsusi ittiham qaydasında da məhkəməyə verib. Binəqədi Rayon Məhkəməsi Fərmanqızı haqda həbssiz axtarış qərarı çıxarıb.



# Ədalət Şükürovun şirkəti bağlanıb

***Əməkdar artist Ədalət Şükürov turizm şirkətini bağlayıb.***

"Unikal" xəbər verir ki, sənətçi bu haqda "Xəzər axşamı" proqramında açıqlama verib. O bildirib ki, hazırda heç bir biznesi yoxdur: "Turizm şirkətim çoxdan fəaliyyətini dayandırıb. İndi işim yalnız müğənnilikdir. Studiyada işlərimiz çoxdur, buna da vaxtımız yoxdur".

# "Pul yoxdursa, hansı sevgidən söhbət gedə bilər?!" - Vəfa Şərifova



***Müğənni Vəfa Şərifova pul haqda maraqlı fikirlər səsləndirib.***

"Xəbərin var?" verilişində qonaq olan sənətçi yalnız dəyərli hədiyyələrə və pula önəm verdiyini etiraf edib.

O, xoş söz, gül və ya ətirlə edilən jestləri yararsız adlandırıb: "Qadın dəyəri məncə, elə bəydən gələn hədiyyə ilə ölçülməlidir. Bəzən xanımlarla qarşılaşıram ki, 2-3 ildir sevgilisi, həyatında bir bəy var. Onun 10 dənə evi var. amma xanım kirayədə yaşayır. Burda hansı sevgidən söhbət gedə bilər?! Burda sevgidən söhbət gedə bilməz, mümkün deyil. Sevgini bəzən maddiyatla da ölçmək lazımdır. Düşünürəm ki, bəylərin sözünə inanmaq lazım deyil. Onu həm maddi, həm mənəvi sınağa çəkmək lazımdır. Bir bəyi ilk öncə maddiyatla sınaqdan keçirərəm. Pul çox vacibdir. İnsan üçün ən dəyərli şey zamandır, o zamanı da pul üçün xərcləyirsən. Həmin pulu da kimə xərcləyirsənsə, o vacibdir. Mən bu düşüncədə olan insanam. Bəlkə də kimsə məni qınayacaq ki, pulgirəm, amma mən bu cür düşünürəm. Heç vaxt yanılmamışam və heç vaxt heç bir bəyə aldanmamışam. Məni güllə, xoş sözlə, ətirlə aldatmaq mümkün deyil. Pul çox axmaq şeydir, istər-istəməz insanın xoşbəxtlik hormonunu oyadır. Pul əl çirki deyil. Pul hörmətsizi hörmətli, dəyərsizi dəyərli edir, pul çox vacibdir".

# "Ana olmadan anasızlığı bildim" - Zeynəb Həsəni



***"Mən demişdim ki, heç vaxt ağlamayacağam. Çünki mənim atam var. İstəmirəm ki, pis olduğumu görsün".***

Bu sözləri müğənni Zeynəb Həsəni müsahibələrinin birində deyib.

Anasının ölümündən söz salan ifaçı göz yaşlarına hakim ola bilməyib: "Anam dünyasını dəyişəndən sonra... Qocalmaqmı deyirlər, nə deyirlər, bilmirəm. Qəlbən qocaldım... ( Ağlayır) Mən ana olmadan anasızlığı bildim. Mən istəmərəm mənim yaşadıqlarımı övladım yaşasın. Həm yaşadıqlarıma, həm də yaşıma görə baş verənlər ağır oldu"(bakıvaxti.az).

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 3





## Baş Qərargah rəisi hərbi hissələrə getdi - Tapşırıqlar verdi

***Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev yeni tədris dövrünə hazırlıq prosesinin gedişini yoxlayıb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, məruzə olunub ki, hazırlıq prosesi ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilir, bölmələrdə və təlim şəhərciklərində maddi-texniki və tədris bazası təkmilləşdirilir, döyüş texnikası və silahların sazlığı, eləcə də təchizatın varlığı yoxlanılır.

General-polkovnik K.Vəliyev "Gizir hazırlığı kursu"nun gedişi ilə də maraqlanıb. Bildirilib ki, keçirilən məşğələlərdə əsas diqqət kursantların bilik və bacarıqlarının daha da artırılması, Ordumuzun arsenalında olan müasir silah, texnika, habelə digər döyüş vasitələrinin düzgün istismarı və effektiv tətbiqi qaydalarının öyrədilməsinə yönəldilib.

Hərbi hissələrdə şəxsi heyətlə görüşən general-polkovnik K.Vəliyev onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib, hərbi qulluqçulara yeni tədris dövründə uğurlar arzulayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun yeni tədris dövrünün başlanması ilə əlaqədar tələb və göstərişlərini şəxsi heyətə çatdıran Baş Qərargah rəisi döyüş və fiziki hazırlıq üzrə tədbirlərin effektiv təşkili, eləcə də hərbi qulluqçuların peşəkarlığının daha da artırılmasına dair tapşırıqlar verib.

## Mərkəzi Bank onlayn lisenziya verəcək

***Azərbaycan Mərkəzi Bankı (AMB) sahibkarlara lisenziyaları elektron platforma üzərindən - onlayn şəkildə verməyi planlaşdırır.***




Bunu qurumun şöbə rəisi Ramil Mahmudov Bakıda keçirilən "Ticarətdə qeyri-tarif maneələri" mövzusunda tədbir çərçivəsində təşkil olunmuş "Azərbaycanda informasiya və texnologiya sektoru: problemlər və imkanlar" adlı dəyirmi masada bildirib.

"Bu ildən iqtisadiyyatın bir sıra sektorlarında fəaliyyət göstərən sahibkarların AMB ilə işinin asanlaşdırılması üçün elektron platformalar yaradılıb. Bunlardan biri də lisenziyaların elektron verilməsi üçün platformadır. Artıq bu istiqamətdə işlərə başlanılıb. Həmin platforma istifadəyə verildikdən sonra kağız daşıyıcılarda əməliyyat aparılması ilə bağlı zərurət qalmayacaq. Çünki həmin platformaya bir sıra dövlət qurumlarının informasiya sistemləri inteqrasiya olunacaq", - deyə o qeyd edib.

R.Mahmudov əlavə edib ki, hazırda AMB-nin elektron müraciət sistemi fəaliyyət göstərir: "İstənilən sahibkar quruma müraciət edib rəsmi şəkildə

# Oliqarxların böyük talaşı

## 2024-cü il inhisarçıların sonu olacaqmı?

***Yola salmaq üzrə olduğumuz həftə ölkə başçısı Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə Fərman imzaladı. Beləcə, uzun illərdir qüvvəyə minməsi həsrətlə gözlənilən Rəqabət Məcəlləsi təsdiqlənmiş oldu.***

Xatırladaq ki, haqqında danışılan Məcəllə 12 fəsil, 84 maddədən ibarətdir və 9 əsas istiqamət üzrə tənzimləməni özündə ehtiva edir. Sənəddə ölkəmizdə rəqabət siyasətinin prinsipləri, Məcəllənin tətbiq dairəsi, rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə bağlı müddəalar əks olunub. Layihədə rəqabət sahəsində bazar subyektlərinin vəzifələri və hüquqları, rəqabət orqanının vəzifəli şəxsinin öz vəzifələrini həyata keçirərkən müvafiq qanunvericiliyin ma-



raqların toqquşması ilə bağlı prinsiplərinə riayət etməsi, habelə rəqabəti məhdudlaşdıran sazişlər, bazarda hökmran mövqe, hökmran mövqedən sui-istifadə halları ilə bağlı məsələlər ehtiva olunur.

Məcəllədə haqsız rəqabətin formaları, rəqib təsərrüfat subyektini nüfuzdan salan, rəqibin sahibkarlıq fəaliyyətini təqlid edən, müştəriləri çaşdırmağa, yaxud aldatmağa yönəldilmiş hərəkətlərlə bağlı maddələr yer alıb. Bununla yanaşı, təsərrüfat subyektlərinin təmərküzləşməsi, razılıq alınması tələb olunan təmərküzləşmələr, təmərküzləşmələrin qiymətləndirilməsi, təmərküzləşmə haqqında ərizənin təqdim edilməsi və araşdırılmasına dair məsələlər nəzərdə tutulub. Sənəddə, həmçinin dövlət orqanları, yerli özünüidarəetmə orqanları, habelə tənzimləyici qurumlar tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsi, subsidiyaların və tənzimləmə fəaliyyətlərinin rəqabətə təsirlərinin qiymətləndirilməsi, dövlət və yerli özünüidarəetmə orqanlarından, habelə tənzimləyici qurumlardan məlumatların əldə edilməsi barədə məsələlər müvafiq maddələrdə müəyyən olunur.

Məcəllə layihəsində təbii inhisar sahələri, təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi, bu subyektlərin fəaliyyətinə rəqabət orqanı tərəfindən dövlət nəzarəti məsələləri, təbii inhisar subyektlərinin fəaliyyətinə dair tələblər təsbit olunur. Habelə, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti tədbirləri, dövlət nəzarətinin həyata keçirilməsinin xüsusiyyətləri, bazarın monitorinqi, yoxlamaların aparılması, sənəd və məlumatların rəqabət orqanına təqdim edilməsi və digər məsələlər öz əksini tapıb.

Xatırladaq ki, Rəqabət Məcəlləsi ölkə müstəqillik əldə edəndən bəri ən çox gözlənilən sənəd idi. 2006-cı ildə Milli Məclisdə məcəllə layihəsi hazırlanaraq birinci və ikinci oxunuşda müzakirə olunub, lakin ondan sonra bir daha müzakirəyə çıxarılmayıb. Amma dəfələrlə məcəllənin hazırlanmasını nəzərdə tutan sərəncam və tapşırıqlar verilib.

Onu da deyək ki, indiyədək sahibkarlıq sahəsində rəqabət mühiti 1995-ci il tarixli "Haqsız Rəqabət haqqında" və 1993-cü ildə qəbul olunan "Antiinhisar fəaliyyəti haqqında" qanunlarla tənzimlənirdi.

Rəqabət Məcəlləsi layihəsinin uzun müddətdir, daha dəqiq desək, 17 ildən bəridir qəbul edilməməsi müəyyən oliqarxların monopolist maraqları ilə izah olunurdu. Hətta Milli Məclisin deputatı Vahid Əhmədov açıqlamalarında bildirirdi ki, sözügedən sənədin qəbul edilməsinə mane olan monopolistlər hələ də var: "İstəmirlər ki, belə bir məcəllə qəbul edilsin. İndiki zamanda rəqabət məcəlləsinin qəbul edilməsi bu kimi halların qarşısını almaq, azad rəqabəti təmin etmək üçün olduqca əhəmiyyətlidir..."

Deputat bir müsahibəsində isə açıq şəkildə demişdi ki, Azərbaycanda bazara nəzarət edən müəyyən qruplar var. Sitat: "Onlar bazarı əldən vermək istəmirlər. Ona görə də bu Məcəllənin qəbul edilməsində maraqlı deyillər. Çünki Rəqabət Məcəlləsi qəbul edildikdən sonra bazarda rəqabət olacaq. Hər bir sahibkar öz malını satanda problemlə üzləşməyəcək. Ona görə də Rəqabət Məcəlləsinin qəbul olunmasına mane olanlar var..."

Başqa bir millət vəkili Əli Məsimli isə bildirmişdi ki, bazar iqtisadiyyatı inhisarçılıqla rəqabətin sintezindən ibarət olsa da, dünyada elə bir ölkə yoxdur, orada rəqabət üçün şərait yaratmadan sözün həqiqi mənasında yüksək səviyyədə hərtərəfli inkişaf edə bilsin. Sitat: "Çünki inhisarçılar öz mövqelərindən sui istifadə edərək, qanunvericiliklə yolverilməz vasitə və üsullardan istifadə etməklə, yüksək mənfəət götürmək məqsədi ilə ayrı-ayrı fəaliyyət sahələrini, məhsul növlərinin idxal-ixracını və bazarların xeyli hissəsini nəzarətə alıb azad rəqabəti boğmaqla inkişafımızın tormozlayıcı amilinə çevriliblər".

Ə.Məsimli başqa bir açıqlamasında isə vurğulamışdı ki, sözügedən layihənin qəbulunun gecikməsi cəmiyyətdə onun hansısa monopolist çevrələr tərəfindən əngəlləndiyi barədə söz-söhbətləri gündəmə gətirir.

Və budur, Rəqabət Məcəlləsi nəhayət ki, Milli Məclis tərəfindən qəbul edildi, Preziden tərəfindən isə təsdiqləndi. Beləliklə, ölkədə inhisarçılığın aradan qaldırılması, sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində ciddi qanunverici baza ortaya çıxdı. İndi əsas düşündürücü məqam ondan ibarətdir ki, sözügedən Məcəllənin parlamentdə qəbulunu 17 ildir əngəlləyən monopolist dairələrin reaksiyası necə olacaq? Bir az da dəqiqləşdirsək, onlar uzun zamandır qəbuluna maneə yaratdıqları qanunun icrası önündə də əngəl yaratmağa çalışacaqlar, ya yox?!

Açığı, son zamanlar ölkədə korrupsiyaya, məmur oliqarxiyasına qarşı hüquqi müstəvidə sərt addımların atılması monopolistlərin qarşıdakı mərhələdə Rəqabət Məcəlləsinin işləkliyini minimuma endirmək cəhdlərini müəyyən qədər istisna edir. Eyni zamanda bu cür cəhdlərin olmayacağını düşünmək də sadəlövhlük kimi görünərdi.

Bu baxımdan ümid bəsləməli başlıca məqam odur ki, yüksək postlar tutub rüşvət və korrupsiya ilə bəslənən məmurlara qarşı güzəştsizliyi Rəqabət Məcəlləsinin tələblərini pozmağa çalışan monopolistlərə qarşı da görəcəyik. İnhisarçılıq bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərini talamaq, yaxud rüşvət almaq qədər ağır suçdur, vətəndaşın cibinə göz dikmək, ölkənin iqtisadi inkişafını təhlükə altına almaqdır.

Qısası, öz fəaliyyətini Rəqabət Məcəlləsinin tələblərinə uyğun qurmayanların rüşvətə, yeyintiyə görə qandallanan vəzifə sahiblərindən heç bir fərqi yoxdur. Beləri, sözügedən Məcəllənin 17 ildir qəbulunu əngəlləməyi, bəlkə də, bacarıblar, lakin onun icrasına mane olmağı əsla bacarmamalıdırlar...

***Toğrul Əliyev***

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 4



# Hacıbala Abutalıbovun oğlundan növbəti qalmaqal

## Vaxtilə Bakıda vətəndaşların əlavə tikililərini sökdürən sabiq merin övladı qardaş ölkədə tarixi binanın başına oyun açıb

***Təqvim 2015-ci ilin avqustunu göstərirdi. Həmin vaxt media yazırdı ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bildirib ki, paytaxtın Yasamal royonu, A.Ağayev küçəsi bina 1-də olan mənzillərə bitişik əlavə tikililər sökülsün.Bu ünvanda yaşayan sakinlər isə deyirdilər ki, tikili qanunidir və bununla bağlı elə icra hakimiyyətinin verdiyi müvafiq qərar əllərindədir.***

Ardınca binanın eyvanında olan sənədsiz tikililərin sökülməyə başlandığı açıqlandı. İcra hakimiyyəti bu işləri şəhərdə aparılan abadlıq-quruculuq işləri ilə əlaqələndirirdi.

Hətta H.Abutalıbovun söküntü işlərinin başa çatması üçün 2 saat vaxt qoyduğu bildirilirdi.

Yasamal rayon İcra Hakimiyyətinin rəhbərliyi söküntü ərazisində olarkən sakinlər onlara əlavə tikili ilə bağlı müvafiq sənədlərin surətini təqdim ediblər. Bu barədə merə məruzə olunduqdan sonra o, sənədsiz tikililərin sökülməsində israrlı olduğunu deyərək, sənədli tikililərlə bağlı məsələyə bu gün iş saatının sonuna qədər baxılacağını açıqlamışdı.

Sakinlər bildirirdilər ki, evlərinə bitişik olan əlavə tikililər sökülərsə evlərini tərk etməyəcəklər. Onlar sənədli tikililərin sökülməsini qeyri-qanuni adlandırmışdılar.

Yəqin təəccüblənəcəksiniz: 9 il öncəki bu olayı xatırlatmaqda məqsədimiz nədir?

İş burasındadır ki, camaatın qanuni şəkildə inşa edilmiş əlavə tikililərini böyük bir israrla sökdürən Hacıbala müəllimin qalmaqallı xəbərlərlə məşhurlaşmış oğlu İsrafil Abutalıbovun təzəlikcə yeni skandalı ortaya çıxdı. Məgər oğul Abutalıbov İstanbulda tarixi binaya qanunsuz müdaxilə etmişdi.

Həmin iddianı ortaya atan Türkiyənin "artigercek.com" saytının yazdığına görə, İsrafil Abutalıbov İstanbulun Fatih bölgəsində yerləşən tarixi binanın üstündə yeni mərtəbə inşa edib!

Nəşr onu da yazırdı ki, həmin bölgədə bir çox mülkə sahib olan İsrafil Abutalıbov bərpa adı altında binanın xarici görünüşünə xələl gətirib. Məsələ ilə bağlı şikayət olunsa da, binada inşaat işləri davam etdirilib.

İstanbul Böyük Şəhər Bələdiyyəsinə, Fatih Bələdiyyəsinə, eyni zamanda, digər aidiyyəti qurumlara çoxsaylı müraciətlərdən sonra nəhayət ki, binada lazımi yoxlamalar aparılıb və qanunsuz əlavələrin olduğu müəyyənləşdirilib.

Bununla belə, hələlik heç bir söküntü aparılmayıb, prokurorluğa müraciət isə nəticəsiz qalıb.

Bəli, nə qədər absurddur: bir zamanlar paytaxtda qanuni, ya da qanunsuz olduğuna baxmadan vətəndaşların çox sayda tikilisini sökdürən sabiq merin oğlu İstanbulda tarixi binanın üstündə yeni mərtəbə inşa etdirib!

İlk baxışdan uzun-uzadı şərhə ehtiyac yoxdur, lakin bunu da yazmaqda fayda var: oğul Abutalıbovun İstanbulda qol qoyduğu yeni qalmaqala çox təəccüblənməmək lazımdır - bizdə bir çox məmurlar və onların yaxınları başqalarına rəva görmədiklərini özlərinə asanlıqla rəva görürlər, əlbəttə, ortada bir mənfəət varsa!



Onu da deyək ki, İ.Abutalıbovun bir müddət öncə İstanbulun Sultanahmet məhəlləsində dəyəri 20 milyon dollar olan hotel aldığı da açıqlanmışdı. Həmin vaxt bildirilirdi ki, qardaş ölkədə vətəndaşlıq statusu alaraq, adını "Abu Bəkr" yazdıran oğul Abutalıbov hotelin yenilənməsi üçün daha bir neçə milyon da xərcləyib.

"Ajwa" adı ilə fəaliyyət göstərən hoteldə Azərbaycan mətbəxini təklif edən ayrıca restoranın da fəaliyyət göstərdiyi, bundan başqa, İ.Abutalıbovun Türkiyədə biznesini genişləndirmək məqsədilə yeni həmlələrə hazırlaşdığı da vurğulanırdı. Belə ki, turizmgazatesi.com-un yazdığına görə, "Abu Bəkr" Abutalıbov "Ajwa" markası ilə ikinci hotelini də Kapadokyada açacaq.

Vaxtilə əyləncələrə meylliliyi ilə seçilən, lakin sonradan vəhhabilər kimi uzun saqqal saxlayıb, şalvarının balağını gödəldən, gündə 5 rükət namazını qılıb, vaxtını yalnız dini ədəbiyyat oxumaqla keçirən, İsrafil Abutalıbovun Azərbaycanda yeganə rəsmi iş yeri Konstitusiya Məhkəməsi sədrinin köməkçisi vəzifəsi olub. O, 2008-ci ilə qədər həmin vəzifəni tutub. Lakin adı mətbuatda qalmaqallı olayların baş qəhrəmanı kimi keçəndən sonra həmin postdan uzaqlaşdırılmışdı.

***Toğrul Əliyev***

# Deputatlar üçün yeni qadağa müəyyənləşdi



***Milli Məclisin deputatları arbitr ola bilməyəcək. "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev "Arbitraj haqqında" yeni qanunu təsdiqləyib.***

Qanuna əsasən, daxili arbitraj icraatına münasibətdə arbitrə dair tələblər müəyyənləşir. İşin nəticəsində maraqlı olmayan, tərəflərdən asılı olmayan və arbitr funksiyasını yerinə yetirmək üçün razılıq verən, 25 yaşı tamam olmuş, ali təhsilli və ixtisası üzrə azı 3 il iş stajına malik olan fiziki şəxslər arbitr ola bilərlər.

Mübahisəni təkbaşına həll edən arbitr yuxarıda qeyd edilən tələblərlə yanaşı, ali hüquq təhsilinə malik olmalıdır. Mübahisənin kollegial qaydada həll edilməsi halında tərəflər arasında digər razılıq olmadıqda, arbitraj məhkəməsi tərkibinin sədri ali hüquq təhsilli olmalıdır.

Arbitraj sazişi və ya daimi arbitraj təşkilatının qaydaları ilə arbitr üçün əlavə tələblər müəyyən edilə bilər.

Milli Məclisin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, dövlət qulluqçuları, hərbi qulluqçular, bələdiyyə üzvləri və qulluqçular, publik hüquqi şəxslərin işçiləri, Azərbaycan hakimləri, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş, vəzifəsinin icrası ilə bağlı əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə son 3 il (arbitraj icraatının başlandığı tarixədək) ərzində xidməti uyğunsuzluğa və ya məhkəmənin hökmü ilə və ya intizam qaydasında hərbi rütbədən məhrum edildiyinə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış hərbi qulluqçular, hüquq mühafizə orqanlarından xaric edilmiş, eləcə də intizam tənbehi qaydasında hakimlik səlahiyyətlərinə, dövlət qulluğuna (o cümlədən dövlət qulluğunun xüsusi növünə), dövlət qulluğu olmayan digər dövlət orqanlarında əmək münasibətlərinə, vəkillik və notariat fəaliyyətinə xitam verilmiş, habelə Media-siya Şurası üzvlüyündən çıxarılmış şəxslər arbitr ola bilməzlər.

# "İrəvan və Bakı sənəd mübadiləsini davam etdirir" - Ermənistan XİN

***Yanvarın 4-də sülh müqaviləsi ilə bağlı göndərilən son təkliflərlə bağlı rəsmi İrəvana hələ də Azərbaycan tərəfdən cavab verilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan açıqlayıb.

Onun sözlərinə görə, üzbəüz danışıqlar olmadan İrəvan və Bakı sənəd mübadiləsini davam etdirir: "Dekabrın 25-də İrəvan Azərbaycanın təkliflərini aldı, yanvarın 5-də Ermənistan tərəfinin müşahidələri Bakıya ötürüldü. Rəsmi İrəvan Azərbaycandan son təklifləri aldıqdan sonra açıqladı ki, hazırda müəyyən gerilələmə var".

***Ağarza Elçinoğlu***

# Şagirdə qarşı kobud davranan müəllimə töhmət verildi



***23 noyabr 2023-cü il tarixində məktəbin 1b sinfinin rəhbəri dərs zamanı şagirdlərin nəticələrini valideynə göstərmək məqsədilə telefonla videogörüntü çəkib.***

"Unikal" xəbər verir ki, görüntülər zamanı müəllimin şagirdə qarşı uyğunsuz davranışı nümayiş olunub.

Məktəb rəhbərliyi tərəfindən müəllimlə söhbət zamanı o etdiyi əməli etiraf edib. Müəllimin izahatı alınıb. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinə əsasən, intizam tənbehi kimi ona töhmət verilib.

Məsələ ilə bağlı məktəb rəhbərliyi tərəfindən şagird və valideynlərlə, həmçinin psixoloq tərəfindən şagirdlə söhbət aparılıb.

Artıq son iki aydır şagirdlər müəllimləri ilə birlikdə dərslərdə iştirak edirlər, valideynlərdən hər hansı rəsmi şikayət daxil olmayıb.

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 5



# Prezident memorandumu təsdiqləyib



***2023-cü il dekabrın 7-də Bağdad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İraq Respublikasının Rabitə Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İraq Respublikası Hökumətinə bildiriş göndərməlidir.

# İlham Əliyev bu qanunu təsdiqlədi

***Prezident İlham Əliyev "Arbitraj haqqında" yeni qanunu təsdiqləyib.***

"Unikal" xəbər verir ki, qanun Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu, 12-ci və 26-cı bəndlərinə uyğun olaraq, arbitrajın həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyir, arbitraj sazişinə dair tələbləri, Azərbaycan Respublikasında arbitraj məhkəmələrinin və daimi arbitraj təşkilatlarının təşkili, fəaliyyət göstərməsi, arbitraj icraatının aparılması, arbitraj qərarlarının tanınması və icrası qaydalarını müəyyən edir.



Qanun 8 fəsildən və 59 maddədən ibarətdir. Sənəddə əsas anlayışlar, qanunun tətbiq dairəsi, arbitraj təşkilatlarının təşkili formaları və prinsipləri, arbitrajda baxılan işlər, arbitraj sazişi, arbitraj icraatı və digər məsələlər əksini tapıb.

Qanuna əsasən, daxili arbitraj icraatına münasibətdə arbitrə dair tələblər müəyyənləşir. İşin nəticəsində maraqlı olmayan, tərəflərdən asılı olmayan və arbitr funksiyasını yerinə yetirmək üçün razılıq verən, 25 yaşı tamam olmuş, ali təhsilli və ixtisası üzrə azı 3 il iş stajına malik olan fiziki şəxslər arbitr ola bilərlər.

Mübahisəni təkbaşına həll edən arbitr yuxarıda qeyd edilən tələblərlə yanaşı, ali hüquq təhsilinə malik olmalıdır. Mübahisənin kollegial qaydada həll edilməsi halında tərəflər arasında digər razılıq olmadıqda, arbitraj məhkəməsi tərkibinin sədri ali hüquq təhsilli olmalıdır.

Arbitraj sazişi və ya daimi arbitraj təşkilatının qaydaları ilə arbitr üçün əlavə tələblər müəyyən edilə bilər.

# MN-ə yeni səlahiyyət verildi

***"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev fərman imzalayıb.

Fərmana əsasən, məhkəmə-psixiatriya ekspertizaları prosesində Müdafiə Nazirliyinə də iştirak etmək səlahiyyəti verilib.

# Siyasi partiyalar seçkilərdə aktiv iştirak edir

***Siyasi partiyalar cari il fevralın 7-nə təyin edilmiş Prezident seçkilərində aktiv iştirak edirlər.***

"Unikal" MSK-nın "Seçki-2024" Müstəqil Media Mərkəzinə istinadən xəbər verir ki, seçkilərə öz namizədləri ilə qatılmaq istəyən bütün siyasi partiyaların namizədlərinin irəli sürülməsi təsdiq edilib və hamısı qeydə alınıb.

Hazırda azad seçki mübarizəsi aparan 7 namizəddən 5-i məhz siyasi partiyalar tərəfindən irəli sürülənlərdir.

Əsas məramı siyasi proseslərdə iştirak olan siyasi partiyaların müxtəlif statuslarla da seçkilərə qatıldığını aydın görmək mümkündür. Seçkilərə öz namizədləri ilə qatılmayan çoxsaylı siyasi partiyalar da Prezident seçkilərinə ciddi maraq göstərir, kifayət qədər böyük sayda müşahidəçiləri və məşvərətçi səs hüquqlu komissiya üzvləri ilə seçkilərdə şəffaflığın təmin olunmasında yaxından iştirak edirlər.

Belə ki, indiyədək 19 siyasi partiyanın, ümumilikdə 30000-ə yaxın müşahidəçisi Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarında akkreditasiyadan keçməklə seçkiləri müşahidə hüququ qazanıblar və bu proses hal-hazırda intensiv şəkildə davam edir.

Qeyd etmək lazımdır ki, siyasi partiyalar ölkədə keçirilən seçkilərdə xüsusi yeri və çəkisi olan mühüm seçki subyektlərindəndir. Azərbaycanın mövcud seçki qanunvericiliyi də siyasi partiyaların seçkilərdə öz məqsəd və məramına uyğun iştirakı üçün hərtərəfli və geniş imkanlar təsbit edir.




Seçki təcrübəsi aydın göstərir ki, siyasi partiyaların seçkilərdə fəallığı, ictimai-siyasi proseslərə təsir imkanları ilbəil artmaqdadır. Əlbəttə bunda siyasi partiyaların inkişafı, möhkəmlənməsi, ictimai-siyasi proseslərə yaxından cəlb edilməsi üçün respublikada yaradılmış əlverişli mühit önəmli rol oynayır.

# Əli Əsədov Gürcüstanın təhsil, elm və gənclər naziri ilə görüşdü



***Yanvarın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın təhsil, elm və gənclər naziri Giorgi Amilaxvari ilə görüşüb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildiriblər ki, görüşdə Azərbaycanla Gürcüstan arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında humanitar sahədə əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında təhsil və elm sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

# Ədliyyə Nazirliyinin vəzifələri artırıldı

***Daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək üçün qeyri-kommersiya hüquqi şəxslərini akkreditasiyadan keçirmək Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə daxil edilib.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin bu gün imzaladığı "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-



VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" fərmanda əksini tapıb.

Daimi arbitraj təşkilatı kimi fəaliyyət göstərmək üçün qeyri-kommersiya hüquqi şəxslərini akkreditasiyadan keçirmək və onların akkreditasiyasını ləğv etmək isə Ədliyyə Nazirliyinin vəzifələri sırasına daxil edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000



# Parlamentdə Böyük Qayıdışla bağlı qanun layihəsi hazırlanacaq

***Milli Məclisin İnsan hüquqları komitəsinin 2024-cü il yaz sessiyası üçün İş Planının məlum olub.***

Komitənin iş planına Böyük Qayıdış və reinteqrasiya ilə bağlı qanun layihəsi daxil edilib.

Qeyd edək ki, komitənin iclası yanvarın 22-də keçirilib.

# Qarabağ separatçıları daha 4 ay həbsdə qalacaq

***Qarabağda qondarma separatçı rejimin "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatlarına baxılıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"ın sorğusuna cavab olaraq bildirilib ki, istintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi prokurorluq, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd Xidmətləri, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin



ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 4 ay uzadılıb.

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 6



# Azərbaycan Avropa Şurası ilə yollarını ayırır

***Xəbər verdiyimiz kimi, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının ilk iclasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsi təsdiqlənməyib. Belə ki, almaniyalı deputat Frank Şvabenin Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsi ilə bağlı təklifi dəstəklənib, qərar qəbul edilməsi üçün Monitorinq Komitəsinə göndərilib. Komitə qərarı dəstəkləyib.***

Qeyd edək ki, bəzi avropalı parlamentarilər Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini sual altına alaraq, nümayəndə heyətimizə qarşı ağlasığmaz ittihamlarla çıxış ediblər. Bunu nəzərə alaraq Azərbaycan nümayəndə heyəti AŞPA-da geniş, ətraflı bəyanat yayıb. AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

Məsələ ilə bağlı fikirlərini "Unikal"la bölüşən Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin bəyanatı tam gözlənilən idi. Onun fikrincə, Qərbdəki bəlli çevrələrin özlərini quduzcasına aparmalarında da əslində təəccüblü heç nə yoxdur: "Prezidentimizin də bildirdiyi kimi biz "dünya miqyasında çox böyük layları tərpətmişik". Ölkəmizi özlərinin rəngli inqilablarının hədəflərindən sayanlara başqa bir inqilabla cavab vermişik. Onun adı yırtıcı güclərin formalaşdırdıqları beynəlxalq konyunkturanı sarsıdan geosiyasi inqilabdır. Budur onları quduzlaşdıran və çılğınlaşdıran. Azərbaycan həmən çevrələrin açıq şəkildə qarşı çıxmalarına rəğmən torpaqlarını işağldan azad edib. BMT-nin kağız üzərində qalan 4 qətnaməsini özü reallaşdırıb. Bununla da bir daha vurğulayıram ki, yırtıcı güclərin formalaşdırdıqları beynəlxalq konyunkturaya heç cür uyğun gəlməyən presedent yaradıb. Ona görə Şuşaya səfirlərini göndərmir, Parlament adlanan səlibçi yığnaqlarında ölkəmizə qarşı qətnamələr hazırlatdırır, uydurma ittihamlar irəli sürür, "Freedom House" kimi qurumlarına Qarabağın bir hissəsini "Dağlıq Qarabağ Respublikası" adı altında Azərbaycandan ayrı göstərmək, "Milli" Şuradakı nökərlərinə Prezident seçkisini boykot etmək tapşırığı verirlər".

Deputat Siyavuş Novruzov isə bildirib ki, Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti islamafobiyaya, türkfobiyaya qarşı addım atıb. O qeyd edib ki, heç bir əsası olmadan, məsələləri araşdırmadan və mahiyyətinə varmadan Azərbaycana qarşı qərəzli qərar qəbul olunur: "Azərbaycanın ərazilərini 30 il işğalda saxlayan Ermənistana qarşı bir dəfə qərar qəbul olunmayıb. Ermənistanda, o cümlədən Avropa dövlətlərində insan hüquqları gecə-gündüz pozulur, amma heç vaxt onların adı çəkilmir. Azərbaycanda partiyasından asılı olmayaraq cinayət törətmiş şəxslər məsuliyyətə cəlb olunur. Bunu Yeni Azərbaycan Partiyasının və ya başqa bir partiyanın üzvü də törətsə, həbs olunmalıdır. Yəni, kiminsə peşəsi və ya partiya üzvlüyü onun törətdiyi ictimai təhlükəli əməli sığortalamır. Bu cür yanaşma tərzi qərəzlidir və Azərbaycan nümayəndə heyəti düzgün olaraq öz bəyanatını verdi. Dünya birqütblü deyil, başqa təşkilatlar da var. Biz başqa təşkilatlarla iqtisadi, siyasi, elmi, mədəni fəaliyyətimizi davam etdirə bilərik".

Milli Məclisin digər üzvü Vüqar Bayramov da qeyd edib ki, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı qərəzli qətnaməsi qurumun özünün nüfuzuna ciddi xələl gətirir.Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurun 30 il ərzində Ermənistan tərəfindən işğal altında qalmasına və tamamilə dağıdılaraq talan edilməsinə göz yuman AŞPA Qafqazdakı yeni düzəndən ciddi narahatlıq keçirməkdədir: "Fransanın təsir dairəsində olan başqa digər qurumlar kimi AŞPA da "sıfır cəmli" oyun oynayır. Qafqazda dayanıqlı sülhə nail olmaq üçün isə həmin qurumların "uduş-uduş" (win-win) strategiyasına ehtiyac var idi. Azərbaycan postsovet məkanında münaqişəyə cəlb olunan ölkələr arasında öz ərazi bütövlüyünü və suverenliyini ilk bərpa edən dövlətdir. Təəssüf ki, bu reallığı bir sıra beynəlxalq qurumlar həzm edə bilmir. Bunun isə bircə adı var: Rasizm".



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiqləməmək barədə qərarına rəsmi Bakı adekvat cavab vermək niyyətindədir. AŞPA-nın sözügedən qərarının qəbul olunduğu sonuncu iclasında Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasının Azərbaycanın Avropa Şurasının digər strukturlarında iştirakının dayandırılması anlamına gəlmədiyi qeyd olunsa da, Bakının mövqeyi fərqlidir.

Azərbaycan özünə qarşı bu haqsız və qərəzli münasibətlə barışmaq fikrində deyil və hazırda yalnız AŞPA yox, ümumilikdə Avropa Şurasından çıxma proseduru da rəsmi Bakı tərəfindən araşdırılır. Eyni zamanda, Azərbaycan Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasını tanımaqdan imtina edə bilər.

***A.Kəlbiyev***

# "Azərbaycan sülh üçün xoşniyyətli danışıqlar aparır" - Hikmət Hacıyev



***"Sərhədin delimitasiyası texniki və vaxt aparan uzun prosesdir, sülh sazişi isə çətin deyil və sadəcə olaraq, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn norma və prinsiplərinin qarşılıqlı şəkildə qəbul olunmasına əsaslanır".***

"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində deyib.

Onun sözlərinə görə, 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra məhz Azərbaycan beynəlxalq hüququn hamılıqla tanınmış normalarına uyğun olaraq suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət olunması, bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiq edilməsi və diplomatik münasibətlərin qurulmasını ehtiva edən beş əsas prinsipi təqdim etməklə Ermənistanla sülh danışıqlarının təşəbbüskarı kimi çıxış edib:

"Azərbaycan regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün Ermənistanla müxtəlif məkanlarda xoşniyyətli danışıqlar aparır. Biz həqiqətən də sülh sazişinin imzalanması üçün tarixi şansın olduğuna inanırıq və bu fürsəti əldən verməməliyik. Sülh sazişinin mətni ilə bağlı əhəmiyyətli irəliləyiş əldə olunub, ancaq hələ də həllini gözləyən bir neçə məsələ mövcuddur. Son vaxtlar hər iki ölkə müsbət gündəmi ilə dünyanı təəccübləndirməyi bacarıb. Mən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının dekabrın 7-də yaydığı mühüm birgə açıqlamaya istinad edirəm. Bunun nəticəsində mübadilə sazişi çərçivəsində 34 hərbçi qarşılıqlı şəkildə azad edilib. Bundan başqa, Azərbaycan Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini, Ermənistan isə Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün namizədliyini dəstəkləyib. Bu, Azərbaycanın və Ermənistanın vasitəçi olmadan birbaşa ikitərəfli danışıqlar aparmağa qadir olduğunu göstərir".

# Məleykə Abbaszadə: "İmtahan tariflərində heç bir dəyişiklik yoxdur"



***"İmtahan tariflərində heç bir dəyişiklik yoxdur". Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib.***

O bildirib ki, belə bir dəyişiklik olarsa, Tarif Şurasının qərarı olmalıdır: "Kütləvi imtahanların sifarişçisi Elm və Təhsil Nazirliyidir. Bu imtahanlarda iştirakçılar pul ödəmir. Onların ödənişləri dövlət tərəfindən ödənilir".

"DİM-in 852 yerlik elektron imtahan mərkəzi hazırda test rejimində fəaliyyət göstərir. İndi korpusda olan avadanlıqları yoxlayırıq" deyən DİM sədri bildirib ki, fevralda bu mərkəzin açılışı gözlənilir: "İlk növbədə dövlət qulluğu imtahanları, daha sonra magistratura və doktorantura üzrə imtahanlar elektronlaşdırılacaq. Kağız daşıyıcılarda imtahanlar mərhələli formada elektronlaşdırılacaq".

# Valideynlik hüququndan məhrum edilmə ilə bağlı yenilik



***Prokuror valideynlərin valideynlik hüquqlarının məhdudlaşdırılması və valideynlik hüquqlarından məhrum edilməsi barədə iddia qaldıra biləcək.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin İnsan hüquqları komitəsində müzakirəyə çıxarılaraq parlamentin plenar iclasına tövsiyə edilən Ailə Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.

Layihəyə əsasən, valideynlərin valideynlik hüquqlarının məhdudlaşdırılması və valideynlik hüquqlarından məhrum edilməsi barədə iddia qaldırmaq hüququ olan şəxslər sırasına prokurorluq orqanlarının da əlavə edilməsi təklif edilir.

Qeyd edək ki, hazırda uşağın yaxın qohumları, yetkinlik yaşına çatmayan uşaqları müdafiə edən orqanlar, məktəbəqədər, ümumtəhsil və başqa müəssisələr valideynlik hüquqlarının məhdudlaşdırılması barədə iddia qaldıra bilərlər.




# İcma: "AŞPA səlibçi, islamofob qurumdur"

***Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycana qarşı son təxribat bu qurumun səlibçi, islamofob mahiyyətini bir daha üzə çıxardı.***

"Unikal" xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

"Biz buna AŞPA-nın Ermənistan üzrə həmməruzəçilərinə qayıdış hüququmuz ilə məşğul olmaq çağırışı ilə 1 mart 2023-cü il tarixində göndərdiyimiz məktuba cavab verilməyəndə tam əmin olmuşduq", - icmadan qeyd olunub.

Bəyanatda vurğulanıb ki, Ermənistandan olan deputatların AŞPA-nın anti-Azərbaycan qətnaməsini dəstəkləməsi isə Ermənistanın sülhə bağlı verdiyi açıqlamalarda səmimi olmadığını göstərir: "Bir tərəfdən sülh müqaviləsindən danışıb, o biri tərəfdən isə 2023-cü ilin yay aylarında olduğu kimi yenidən Azərbaycana qarşı qarayaxma kampaniyasında iştirak etmək qəbuledilməzdir".

Qeyd edək ki, 2001-ci ildə Avropa Şurasının və AŞPA-nın tamhüquqlu üzvü olub. Bəzi avropalı parlamentarilər ötən gün Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini sual altına alaraq, nümayəndə heyətimizə qarşı ağlasığmaz ittihamlarla çıxış ediblər. Bunu nəzərə alaraq Azərbaycan nümayəndə heyəti AŞPA-da geniş, ətraflı bəyanat yayıb. AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

# Baş həkim məhkəmə zalında həbs edildi

***Bakı Ağır Cinayətlər Məhkəməsi Sabunçu rayonu 21 saylı Birləşmiş şəhər Xəstəxanasının keçmiş baş həkimi Rauf İsfəndiyarovla bağlı qərar verib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, hakim Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən məhkəmə prosesində külli miqdarda rüşvət alma maddəsi ilə ittiham olunan Rauf İsfəndiyarov məhkəmə zalında həbs edilib.

Qeyd edək ki, növbəti məhkəmə iclası fevral ayının 6-na təyin olunub.

Xatırladaq ki, R.İsfəndiyarov dövlətə 1.6 milyon manat dəyərində zərər vurmaqda, eləcə də Bakıda müğənniyə qarşı külli miqdarda dələduzluq etməkdə təqsirləndirilir.

Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq - külli miqdarda ziyan vurmaqla), 179.2.3-cü (mütəşəkkil dəstə tərəfindən və külli miqdarda mənimsəmə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 32.4.308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə təhrik etmə), 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə), 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma), 313, 32.4.313-cü (vəzifə saxtakarlığına təhrik etmə) və 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb.

# "Monopoliyanın tamamilə aradan qaldırılması bir az problemli görünür"

## Natiq Cəfərli: "Bunların aradan qalxması üçün dövlət şirkətlərinin rəqiblərinin yaranmasına, özəl şirkətlərin də bu sahədə fəaliyyət göstərməsinə imkan yaratmaq lazımdır"

***REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, Rəqabət Məcəlləsi qüvvəyə mindikdən sonra bunun iqtisadi sahəyə necə təsir edəcəyindən, Məcəllənin monopoliyanın aradan qaldırılmasına təsirlərindən, Prezident seçkilərindən sonra hansı struktur islahatlarının ola biləcəyindən və başqa məsələlərdən danışıb.***

***-Natiq bəy, yanvarın 23-də Prezident İlham Əliyev Rəqabət Məcəlləsini təsdiqləyib. 12 fəsil, 84 maddədən ibarət olan qanun 2024-ci ilin 1 iyul tarixindən qüvvəyə minəcək. Məcəllənin qüvvəyə minməsi iqtisadi sahəyə nə kimə təsir göstərəcək?***

-Bir neçə il əvvəl Rəqabət Məcəllənin gündəmə gəlmişdi, amma müxtəlif maraq qruplarının lobbiçilik fəaliyyətindən Məcəllənin qəbul olunması gecikdirilirdi. Nəhayət ki, Məcəllə qəbul olundu və Prezident tərəfindən də təsdiqləndi. İri şirkətlərə 6 ay zaman tanındı ki, bazardakı vəziyyətlərini dəyərləndirib Rəqabət Məcəlləsinə tuş gəlməsinlər. Bu baxımdan, onlara öz fəaliyyətlərini tənzimləmək üçün zaman verildi. Bu, fürsətdir. Çox güman 6 aylıq zaman onunla əlaqəlidir ki, bazarda böyük paya malik olan şirkətlər öz bazar payları və fəaliyyətlərini bu müddətdə tənzimləyə bilsinlər. Burada əsas məsələ ondan ibarətdir ki, bazarda 50 faizdən çox paya malik olan şirkətlərə müxtəlif dövlət orqanlarının birbaşa qiymət qoyma və fəaliyyətinə müdaxilə imkanları yaranır. Bazar payı 35-50 faiz arasında olanlara isə dövlət tərəfindən müəyyən zaman tanınır ki, öz fəaliyyətlərini tənzimləsinlər. Rəqabətli mühitin artması, iqtisadiyyatın çoxşaxəli modelə keçməsi, kiçik və orta sahibkarların bazara daha rahat daxil olması üçün Rəqabət Məcəlləsi hüquqi müstəvi yaradır. Əsas məsələ ondan ibarətdir ki, bu necə tətbiq olunacaq. Azərbaycanda bir çox qanunlar var ki, iqtisadi tənzimləmə və aktivlik üçün kifayət qədər yararlıdır. Amma yerinə yetirilmə qaydaları problemli olduğundan iqtisadiyyata ciddi töhfə verə bilmir. Məcəlləyə baxdım, çox qəliz, hüquqi dildə yazılıb. Obyektiv səbəblərdən bəzi kiçik və orta sahibkarların hüquqi prosedurlarla bağlı bilgisi azdır. Altı ay müddətində dövlət orqanları sosial çarxlar, televiziyalarda müzakirələr və s. ilə onların hansı hüquqlarının yarandığını, bu hüquqlardan necə istifadə etmələrini izah edə bilərlər. Ona görə ki, onlar Məcəllənin yaratdığı imkanlardan və fürsətlərdən istifadə edə bilsinlər.

***-Rəqabət Məcəlləsinin azad sahibkarlığın inkişafına və monopoliyanın aradan qaldırılmasına nə kimi töhfəsi olacaq?***

-Monopoliyanın tamamilə aradan qaldırılması bir az problemli görünür. Ona görə ki, bizdə təbii inhisarlar da var. Yəni, dövlətin şirkətləri var ki, bunlar təbii inhisarlardır. Bunların aradan qalxması üçün dövlət şirkətlərinin rəqiblərinin yaranmasına, özəl şirkətlərin də bu sahədə fəaliyyət göstərməsinə imkan yaratmaq lazımdır. O ki, qaldı digər sahələrdəki monopoliyalara, bunların da aradan qaldırılması mümkündür. Amma bir tək Məcəllə yetərli deyil. Bunun üçün kompleks tədbirlər lazımdır. Məsələn, iri şirkətlər indi 6 ay ərzində öz dövriyyələrini böləcəklər və bir neçə törəmə şirkətlər yaradacaqlar. Bu, qaydalara uyğun olacaq. Belə ki, bazar payları 30 faizdən aşağı olan bir neçə şirkət yaradacaqlar. Dövlət ciddi nəzarət etməlidir ki, bu baş aldatmağa çevirilməsin. Bu məsələlər Rəqabət Məcəlləsinin yerinə yetirilməsi qaydalarından asılı olacaq.

***-Məcəllənin qəbulu bəzi məhsulların qiymətlərinin azalmasına nə kimi təsir göstərəcək?***

-İqtisadiyyatın qızıl qanunu var ki, rəqabət çox olanda, qiymət ucuz olur. Bu Məcəllə elə işləməlidir ki, əsl rəqabətli mühit yaratsın. Bu mühit yarananda isə qiymətləri bazar tənzimləmir. Bazarın görünməz əl teoriyası işə düşür və bazarda tənzimləmə yaranır. Rəqabət Məcəllləsi qanunvericilik çərçivəsində imkanlar yaradır. Amma onun həyata keçirilməsinə baxmaq lazımdır.

***-Məlum olduğu kimi, fevralın 7-də ölkəmizdə Prezident seçkiləri keçiriləcək. Seçkilərdən sonra bir sıra dəyişikliklərin olacağı ilə bağlı fikirlər səsləndirilir və bu istiqamətdə müzakirələr gedir. Necə düşünürsüz, seçkilərdən sonra iqtisadi sahədə hansı yeniliklərin olacağı gözlənilir?***



-Ölkəmiz bəlli bir uğurlu yol keçib. Ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunub. İndi köhnə qaydada idarəetmə modelinin yetərli olmadığı və yeni modelə keçid müzakirə olunmalıdır. Bu gün iqtisadi və sosial sahədə baş verən problemlərin bir çoxunun kökündə idarəetmə sistemindəki boşluqlar, bir-birini təkrarlayan orqanların olması durur. Çoxlu nəzarətçi qurumların olmasını, biznesin işinə qanunvericilik şəklində müdaxilə etmə hüququ olan çox sayda dövlət orqanlarının olmasını da bura əlavə etmək olar. Birinci növbədə idarəetmə tənzimlənməli, yeni idarəetmə formasına keçid baş verməlidir ki, bundan sonra iqtisadi açılımlarda da ciddi uğurlu nəticələr əldə etmək mümkün olsun.

***-Yeni struktur islahatlarının olacağı ilə bağlı fikirlər də səslənidirilir...***

-Əlbəttə, struktur islahatlarının olması çox vacibdir. Həmçinin, yeni konstitusiya dəyişikliklərinin olmasını vacib sayıram. Ölkənin inzibati ərazi vahidi dəyişdirilməli, 14 iqtisadi zona inzibati ərazi vahidinə çevrilməlidir. İcra hakimiyyətləri struktur olaraq ləğv edilməli, seçkili oqranların üstünlüyü artmalıdır. Nazirlər Kabinetində islahatlar aparılmalıdır. Çox sayda nazirliklərin və dövlət idarələrinin olduğunu görürük. Ümumi sayları 44-dür. Bir-birini təkrarlayan orqanlar var. Məsələn, tikinti sahəsində 11-12 orqan var. Bunları bir mərkəzdə cəmləşdirməyə ehtiyac var.

***Anar Kəlbiyev***

03_27 IYUI-QARA.qxd 1/25/2024 9:37 PM Page 8



# Zəfərlə yoğrulmuş seçim

***İkinci Qarabağ müharibəsinin qələbə ilə yekunlaşması və ölkəmizin süverenliyinin mütləq şəkildə bərqərar olmasından sonra Azərbaycan yeni bir mərhələyə qədəm qoydu. Bu səbəbdən də ölkədə siyasi proseslərin, idarəçiliyin və digər spektrlərdə dəyişikliyin olması üçün zərurət yarandı. Növbədənkənar Prezident seçkilərinin təyin olması da bu zərurətdən irəli çıxdı.***

Artıq yanvarın 15-dən növbədənkənar prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına başlanılıb. Qərara görə, fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Məlumdur ki, budəfəki seçkidə 7 namizəd mübarizə aparacaq. Onlar hakim Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev, namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev və namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyevdir.

### Xalqın liderinə tam dəstəyi...

İnkar etmək olmaz ki, ölkədə ciddi seçki mübarizəsi getmir. Bunun müxtəlif səbəbləri var. Lakin bunların daha mühüm və qabarıq olan səbəblərindən biri bu seçkidə hakim Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyevin qələbəsinə cəmiyyətin zərrə qədər şübhəsi yoxdur. Hətta hazırda ölkə əhalisinin böyük çoxluğu İlham Əliyevin yenidən prezident seçilməsi üçün seçkiyə ehtiyacının olmadığı qənaətindədir. Amma konstitusion tələblər var və bu səbəbdən seçki zərurətdir. Təbii ki, ölkədəki mövcud ictimai, siyasi və sosial-iqtisadi vəziyyətdən razı olanların hakim partiyanın namizədini dəstəkləməsi normaldır. Bu elektoratı gözardı etmək olmaz. Sözsüz ki, mövcud durumdan narazı olanlar da var və onlar alternativ namizədləri dəstəkləyəcəklər. Lakin bu dəfə fərqli bir situasiya var. Bu dəfə xalqın böyük əksəriyyəti hakim Partiyanın namizədi İlham Əliyevi deyil, Ali Baş Komandan İlham Əliyevi dəstəkləyəcək. Bu, Azərbaycan xalqının ikinci Qarabağ savaşındakı sərkərdəlik, eləcə də diplomatiya meydanındakı siyasi xadimlik missiyasını yüksək səviyyədə həyata keçirən liderə olan şükran borcudur. Hakim partiyanın seçkidə ən yaxşı kampaniya aparacağını da kənara qoymaq olmaz. Çünki ölkənin həm maddi, həm insani, həm də inzibati imkanları ən güclü olan partiyası YAP-dır. Partiyanın seçki şüarındakı məqamlar da bu dəfə YAP-ın “əlinin daha güclü” olduğunu göstərir: ”İnanırıq ki, qalib Azərbaycan xalqının seçimi Vətənə, xalqa ləyaqətlə xidmət göstərən, verdiyi vədlərə əməl edərək ölkəmizə möhtəşəm nailiyyətlər qazandıran və parlaq Qələbə bəxş edən, suverenliyimizin bərpasına nail olan Qalib Lider - İlham Əliyev olacaq”.

### Alternativlik gücü olmayan rəqiblər

Seçki marafonuna qoşulan namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc ictimai-siyasi arenada müəyyən müsbət imicə malik olan şəxsdir. Bu günə kimi onun hakimiyyətin, xüsusən də Prezident İlham Əliyevin yürütdüyü siyasətin təbliğçilərindən biri kimi fəaliyyət göstərdiyini desək, yanılmarıq. Yəni, Zahid Orucun bu seçkidə İlham Əliyevə alternativ deyil, hakim siyasətin təbliğçisi kimi qatıldığını demək olar. “Ən böyük sərvət insandır!” şüarı ilə seçkiyə qatılan Z.Orucun namizəd kimi çıxışları da ümumiləşmiş, hədəfi olmayan, nəzəri təkliflərdən ibarətdir. Yəni, onun çıxışlarını ümumiləşdirib izləsəniz, “mən prezident olsam” ifadəsinə və yanaşmasına rast gələ bilməzsiniz.

Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafanın da seçkidə ciddi şəkildə fərqlənəcəyi gözlənilən deyil. F.Mustafa istər Milli Məclisdə, istər sosial şəbəkələrdə aktivliyi ilə diqqət çəkir. “Dayağımız: yeniləşən, çalışqan insan! Hədəfimiz: rifah dövləti Azərbaycan!” şüarı ilə marafona qoşulan partiya sədri də namizəd kimi çıxışlarında seçicini özünə cəb edən məqamlar olduqca azdır.

Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev “Sosial ədalət, sosial demokratiya” şüarı ilə seçkiyə gedir. Milli Məclisdə özünün müxalif obrazını canlandırmağa çalışan R.Nurullayevin ictimai rəydə hakimiyyət əleyhdarı kimi qəbul edildiyini demək olmaz. Belə ki, cəmiyyətdə hələ də onun və partiyasının müxalifət təmsilçisi kimi qəbul olunmaması seçkidə də bu kəsimin səsini alacağına inam yaratmır. Namizəd kimi çıxışlarında bir sıra problemlərə toxunsa da, cəmiyyət hələki onun müxalifliyinin səmimiliyinə inanmır.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev artıq neçənci dəfədir ki, bu seçkilərə qatılır. O, çıxışlarındakı fərqli yanaşmalar ilə diqqəti çəkməyə çalışsa da, onun da bu seçkilərdə heç olmasa, əvvəlki prezident seçkilərindəki qədər səs alacağı real görünmür.

### Seçkinin sönük namizədləri

Namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyev seçkinin ən sönük namizədidir. İstər İTV-dəki çıxışları, istər keçirdiyi görüşlərdə verdiyi mesajlar nəinki prezidentliyə namizəd, cəmiyyətdə heç ciddi siyasətçi rəyi yaratmır. Daxili siyasəti izləyənlər bilir ki, Fuad Əliyev son günlərə qədər Liberal Demokrat Partiyasının sədri kimi fəaliyyət göstərirdi. Lakin bu partiyanın aktiv üzvlərinin sayı partiyanın adındakı hərflərin sayından çox olduğuna kimisə inandırmaq müşkül məsələdir. F.Əliyevin çıxışlarında üzünü siyasi mənsubiyyəti olmayan, bitərəf seçicilərə tutaraq ““Varlı vətəndaş, varlı ölkə!” mesajını versə də, sosial şəbəkələrdəki reaksiyalardan görünür ki, o seçkidə ən az rekord səs alan namizəd olacaq.

Bir vaxtlar YAP hakimiyyətinə qarşı radikal mövqedə olan Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayevi də parlaq namizəd hesab etmək olmaz. E.Musayev milli adamdır, adı heç vaxt mənfi, qalmaqallı hadisələrdə hallanmayıb, müsbət bir siyasi karyerası var, amma prezidentlik iddiası onun üçün bir ölçü böyükdür.

### Seçkini də, siyasəti də boykot edənlər...

Uzun illərdir ki, ölkədə siyasi mübarizə getmir. Heç şübhəsiz ki, burada vaxtilə hökumətin sərt mübarizə üsullarından istifadəsinin də rolu var. Amma məsələ odur ki, ənənəvi müxalifət də mübarizə metodlarında, komandalarında, idarəçilikdə dəyişiklik etmədilər. Təbii ki, bu da olan-qalan elektoratı da onlardan uzaqlaşdırdı. İş o yerdədir ki, Azərbaycanın yeni tarixində baş verən fövqəlqələbədən sonra da müxalif cinahda yenilənmə olmadı. Belə ki, növbədənkənar prezident seçkilərində də müxalifət Partiyalarından olan Müsavatla AXCP ənənələrinə sadiq qalıblar. Əvvəlki illərdə olduğu kimi, seçkilərin demokratik şəraitdə keçməyəcəyini əsas gətirərək, boykot yolunu tutublar. Amma məsələ ondadır ki, artıq cəmiyyətdəki inamı itirdiklərinə görə AXCP ilə Müsavat Partiyasının boykot qərarının seçki prosesinə hər hansı siyasi təsirindən söhbət gedə bilməz. Çünki hazırda bu partiyaların fəaliyyətindən, hansı qərar verməlrindən sosial şəbəkədəki kiçik bir qismdən başqa heç kim xəbərdar deyil. Bu qərar əvvəlki illərdəki kimi beynəlxalq təşkilatların da diqqətini çəkmir.

### Keçmiş rəqiblərindən İlham Əliyevi dəstək

Ləğv edilmiş Azərbaycan Liberal Partiyasının keçmiş lideri, 2003-cü ildə İlham Əliyevə rəqib olan xanım siyasətçi Lalə Şövkət bəyan edib ki, növbədənkənar prezident seçkilərində İlham Əliyevə alternativ yoxdur: “Qarabağın azad olunması İlham Əliyevin böyük tarixi nailiyyətidir. Bunu heç kim dana bilməz. Bu çox çətin işi İlham Əliyev milləti səfərbər edərək həll etdi. Şəhidlərimizin qanı yerdə qalmadı. Onların ruhu daim bizimlə olacaq. Bu məsələnin həllinin hərbi, xüsusən də geosiyasi razılıq baxımından nə qədər müşkül olduğunu mən bir siyasətçi kimi yaxşı bilirəm. Bu labirintdən Azərbaycan məharətlə çıxdı. Bu da sözsüz ki, İlham Əliyevin böyük diplomatik uğurudur”.

İlham Əliyevin daha bir rəqibi İqbal Ağazadənin sədri olduğu Ümid Partiyası növbədənkənar Prezident seçkiləri ilə bağlı qərarını açıqlayıb. Partiya Prezident seçkilərində hazırki Prezident İlham Əliyevin namizədliyini dəstəkləyir və bunu ölkəmiz, xalqımız adına ən doğru qərar hesab edir: “Ölkə daxilində milli birliyin qorunması və 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması üçün tərəddüd etmədən ölkə Prezidentini, Ali Baş Komandanı və onun atdığı addımları dəstəkləyirik. Başladığı işi uğurla sona çatdırması üçün bu seçkidə iddia və istəklərimizdən, şəxsi və partiya mənafelərimizdən daha çox Azərbaycanımızı düşünərək, Ali Baş Komandan İlham Əliyevin namizədliyini dəstəkləyirik”.



ADP sədri Sərdar Cəlaloğlu da son 3 ildə baş verən prosesləri, Qarabağın işğaldan azad olunmasını, ölkəmizin süverenliyinin tam təmin olunması və digər məsələləri əsas gətirərək seçkinin favoritinin hakim partiyanın namizəsi İlahm Əliyev olduğunu bildirib. Onun fikrincə, budəfəki seçkidə İlham Əliyevlə yarışmaq mümkün deyil. Müxalif lider bəzi partiyaların seçkini boykot etməsinə münasibət bildirib. Onun sözlərinə görə, “Siyasi Partiyalar haqqında” qanuna əsasən, seçkiləri boykot etmək cinayətdir: “İştirak etməmək, seçkiyə qatılmamaq başqa məsələdir. Amma boykot cinayətdir. Seçkini nəyə görə boykot edirlər ki? Seçkidə iştirak etmirəm, seçkilər arası dövrdə də ölkədə vəziyyəti dəyişdirmək üçün ciddi addımlar atmıram”.

### Yekun nəticə...

Budəfəki seçki şükran seçkisi olacaq. Xalq Müzəffər Ali Baş Komandan titulunu qazanan hazırkı Prezident İlham Əliyevə səs verəcək. Qarabağın azad olunması və möhtəşəm qələbə necə Azərbaycan xalqının haqqı idisə, növbədənkənar prezident seçkilərində də qələbə İlham Əliyevin haqqıdır. İlk dəfə prezident seçkilərində ürəklə, qürurla iştirak edib seçimimi edəcəm.

Ölkədə kifayət qədər problem var. Son 20 ildə siyasi müxalifət də çox yıprandı. Artıq hakim siyasi qüvvənin lideri ilə rəqabət aparacaq gücdə müxalif lider yoxdur. Bundan sonrakı seçkilərə qədər isə ya yeni siyasi lider formalaşacaq, ya dag İndidən ikinci “ya da”nı demək çətindir. Odur ki, fevral seçkisinin nəticəsi bəllidir, sonrasını zaman göstərəcəkg

***Zaur Əhməd***

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 9



# Şuşa, Laçın və Xocavənddə poçt filialları açılacaq




***Azərbaycanın işğaldan azad olunmuş ərazilərində, Qarabağ və Şərqi Zəngəzurda bəzi şəhərlərdə poçt filialının yaradılması ilə bağlı işlər gedir.***

"Unikal" xəbər verir ki, "Azərpoçt" MMC-nin İdarə heyətinin sədrinin vəzifələrini müvəqqəti icra edən İsi Mustafayev "2023-Hesabat" adlı tədbirdə bildirib.

"2020-ci ildə Hadrutda, daha sonra Cocuq Mərcanlıda poçt şöbəsi yaradılıb. 2022-ci ildə isə Zəngilan rayonunun Ağalı kəndində poçt xidmətlərinin təşkili təmin olunub. Hazırda Xankəndi Poçt Filialı yaradılır. Eyni zamanda, Şuşa, Laçın və Xocavənd, Əsgəran şəhərlərində poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən edilməsi istiqamətində işlər aparılır", - deyə İsi Mustafayev qeyd edib.

# Azad edilən 3 rayonda imtahan keçiriləcək



***"Bu il işğaldan azad edilmiş ərazilərimizdəki 3 məktəbdə buraxılış imtahanı keçiriləcək".***

Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə imtahan rəhbərləri və nəzarətçilərin mükafatlandırılması mərasimində deyib.

O bildirib ki, bu səbəbdən rayonlarda nəzarətçi müəllimlərin sayının artırılması planlaşdırılır.

Qeyd edək ki, ötən ilin mart ayında Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbində də buraxılış imtahanı keçirilib. Bu Dövlət İmtahan Mərkəzinin işğaldan azad olunan rayonlarda təşkil etdiyi ilk imtahan idi.

# Son illər 504 uşaq övladlığa verilib - Rəsmi



***1 noyabr 2019-cu ildən indiyə kimi ümumilikdə 504 uşaq övladlığa verilib.***

"Unikal" xəbər verir ki, bunu Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov mətbuat konfransında bildirib. Onlardan 141 nəfəri ötən il övladlığa verilən uşaqlardır.

"Paralel olaraq "Himayədar ailə" qayğı modeli çərçivəsində 5 uşaq himayədar ailələrə verilib. Sosial layihələr çərçivəsində 2023-cü il ərzində 21 şəhər və rayonda yaradılan günərzi qayğı mərkəzlərində 630 uşağa sosial xidmət göstərilib".

# Şəxsi heyətin döyüş vərdişləri təkmilləşdirilir



***Daxili Qoşunların Naxçıvandakı birləşməsində döyüş hazırlığı planına uyğun olaraq hərbi qulluqçularla təlim-atış çalışmaları, praktiki məşğələ və təlimlər keçirilir.***

"Unikal" xəbər verir ki, qarlı-şaxtalı havalarda, çətin relyefli ərazilərdə döyüş tapşırıqlarının yüksək peşəkarlıqla icrasına nail olunması məqsədilə şəxsi heyət təlim-atış çalışmasına cəlb edilib.

Havanın əlverişsiz olmasına baxmayaraq təyin edilmiş hədəflər yüksək sərrastlıqla və hərbçi ustalığı ilə məhv edilib.

Daxili Qoşunların Naxçıvandakı birləşməsində plana uyğun olaraq təlim-atış çalışmaları davam edir.

# Taleh Kazımov Elman Rüstəmovun yolu ilə gedir, yoxsa...

## Bankları bağlamaq bu sektordakı problemlərdən çıxış yoludurmu?

***Azərbaycanda daha bir neçə bankın da bağlanacağına dair yeni iddialar ortaya atılıb. Məsələ burasındadır ki, bəzi sistem əhəmiyyətli banklar son günlər əmanət faizlərini artırsa da, bir neçə bank təklif etdikləri gəlirliliyi azaldıblar.***

Banklar bunu kreditə yönəldilməyən cəlb edilmiş vəsaitlərə görə əlavə xərclərin yaranması ilə izah edirlər. İddialar bu yöndədir ki, ötən il bir neçə bankın bağlanması ilə bazarda bu prosesin yeni ildə də davam edəcəyi gözləniləndir.

Nəticədə vətəndaşlar öz əmanətləri ilə bağlı bank seçimi edərkən problemlərlə üzləşirlər. Xüsusilə axır vaxtlar bəzi bankla-BTB"də müştərilərin tələbli depozitlərinin həcmi 6 milyon 491 manat və ya 2022-ci illə müqayisədə 39% azalıb.

Bəzi maliyyə göstəriciləri pisləşən banklardan biri olaraq isə "Premium Bank" ASC göstərilir. İddia edilir ki, adıçəkilən bank 2022-ci illə müqayisədə 2023-cü ildə mənfəətini artırsa da, onun depozit portfelində kəskin azalma olub. Belə ki, 2023-cü il ərzində bankda hüquqi şəxslərin depozitləri 29 milyon 914 min manat, fiziki şəxslərin depozitləri, 9 milyon 806 min manat, aktivləri isə 7 milyon 86 min manat azalıb.

Bir sözlə, yerli KİV və müxtəlif iqtisadçı ekspertlər 2024-cü ildə də bəzi bankların bağlanma ehtimalı üzərində dayanırlar.

manı T.Kazımov bildirmişdi ki, bankların bağlanmasına həssas yanaşır. Sitat: ""Həcmindən asılı olmayaraq, banklar var ki, problemlidir, bütün maliyyə sektoruna xələl gətirir. Həm keçmiş bankir kimi, həm də Mərkəzi Bankın sədri kimi bankların, sığorta şirkətlərinin bağlanmasını istəməzdim. Böyük problemləri olan təşkilatlarda işlər görülməlidir, görülmürsə bağlanmaldır".

Qəribədir ki, AMB-nin hazırkı rəhbəri bankların bağlanmasını sektordakı mövcud problemlərdən ən doğru çıxış yolu olaraq görmədiyini söyləməsinə baxmayaraq, onun həmin posta gəlməsindən sonra bir neçə bank qapadıldı. Beləcə, ictimai rəydə konkret fikir formalaşdı: ölkənin



rın əmanət faizlərini azaltması vətəndaşlarda təşvişə səbəb olub. Hazırda aktual səbəblərdən biri budur: depozit faizlərinin endirilməsi həmin banklar üçün "əcəl zəngi"nin çalınmasının göstəricisidirmi?

Xatırladaq ki, son 3 ildə 7 bankın lisenziyası ləğv olunub.

Yola saldığımız 2023-cü ildə Mərkəzi Bank tərəfindən 2 bank - "Günay Bank" ASC və "Muğanbank" ASC bağlanıb.

Hazırda isə 2024-cü ildə hansı bankların bağlanma təhlükəsi gözlədiyi müzakirə olunur. Məsələn, bankların 2023-cü il üçün açıqladığı maliyyə hesabatlarına baxdığımız zaman belə görünür ki, hazırda bağlanma təhlükəsiylə qarşı-qarşıya qalan əsas bank "Bank BTB" hesab olunur. Yerli medianın yazdığına görə, "Bank BTB" yeganə bankdır ki, son 4 ilin 3-nü zərərlə başa vurub. Bundan başqa, 2023-cü ildə "Bank

Maraqlısı budur ki, Azərbaycan Respublikası Mərkəzi Bank (AMB) belə iddialara indiyədək hər hansı reaksiya verməməyi üstün tutur. Nəticədə aydın olmur ki, söylənilənlərdə həqiqət payı nə qədərdir? Bu isə cəmiyyətdə istər-istəməz müəyyən narahatlıqlara gətirib çıxarır.

Məsələ burasındadır ki, Elman Rüstəmovdan sonra AMB rəhbərliyinə T.Kazımovun gətirilməsi ekspertlər arasında və bank sektorunda belə qiymətləndirilirdi: bankların artıq "ənənə" halını almış bağlanma təcrübəsinə son qoyulacaq. Çünki yeni baş bankirin bank sektorunu ləğvetmə yolu ilə sağlamlaşdırma tərəfdarı olmadığına dair qənaət hakim idi. Elə onun müxtəlif vaxtlardakı çıxışları və müsahibələri də həmin qənaəti daha da möhkəmləndirirdi. Məsələn, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasındakı çıxışı za-

baş bankiri sonda ən asan yolu getmək, vaxtilə Elman Rüstəmovun qol qoyduğu metoda əl atmaq qərarına gəlib - müəyyən problemlərlə üzləşən bankları sağlamlaşdırmaq istiqamətində konkret tədbirlər görməkdənsə ən yaxşısı həmin bankları bağlamaqdır!

Bir daha yazmışdıq, yenə xatırladaq: sabiq baş bankirin, yəni Elman müəllimin oxşar idarəçiliyi ucbatından Azərbaycanda banklara inam xeyli sarsılmışdı. İnsanlar pullarını "yastıq altında" saxlamağa üstünlük verirdilər. Mərkəzi Bankın sədri dəyişəndən sonra sarsılan inamın bərpasına ümid böyük idi. Lakin Taleh müəllimin AMB sədrliyinə gətirilməsinin ardınca vətəndaşlar yenə də bankların bağlanıb-bağlanmaması mövzusunda səksəkəli olmağa davam edəcəkdilərsə, onda həmin ümidin nə mənası qalır ki?!

***Sənan Mirzə***

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 10



# 4 rayona rəhbərlik etmiş Nazim İsmayılovun karyerası niyə qəfildən bitdi...

## Sabiqlərin izi ilə: lüks avtomobillər, dəbdəbəli villalar, xaricdə bahalı əyləncələr - Bəs bardağı daşıran son damla nə oldu?

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz 4 fərqli rayonda İcra Hakimiyyətinin başçısı işləmiş Nazim İsmayılov haqqındadır.***

Azərbaycanın ən uzun ömürlü icra başçılarından sayılan N.İsmayılov hazırda 72 yaşındadır. Göyçay rayonu Kürdşaban kəndində anadan olan sabiq başçının tərcümeyi-halındakı maraqlı məqamlardan biri ali təhsili ilə bağlıdır: belə ki, o, 1974-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 17 il sonra - 1991-ci ildə isə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib. Bir sözlə, ixtisasca istilik energetik mühəndisi və politoloqdur.



2001-2006-cı illərdə Göyçay rayonu İcra Hakimiyyətinin başçısı işləyən İsmayılov 2006-2011-ci illərdə Şamaxı rayonu İcra Hakimiyyətinin, 2011-2019-ci illərdə Sabirabad rayonu İcra Hakimiyyətinin başçısı işləyib. Sonuncu dəfə 2019-cu ildə Saatlı rayonu İcra Hakimiyyətinin başçısı postuna təyinat alan N.İsmayılov gözlənilməz şəkildə, cəmi 1 il sonra vəzifəsini itirib.

Bəs buna səbəb nə olub? Məsələ burasındadır ki, Nazim müəllimin 19 illik icra başçısı karyerasının bitməsindən bir müddət əvvəl onun oğlu Anar İsmayılovun Kanadada şirkəti və mülkü üzə çıxmışdı. Həmin vaxt yerli KİV xəbər verirdi ki, həmin şirkət və mülk Kanadanın paytaxtı Torontonun "North York" bölgəsində yerləşir.

Anar İsmayılovun mülkünün 1 milyon 300 min dollar (2 milyon 210 min manat) dəyərində olduğu bildirilirdi.

Lakin Nazim İsmayılov həmin vaxt "AzPolitika.info"nın elektron poçtuna göndərdiyi məktubda bu məlumatı təkzib etmişdi: "Bildirirəm ki, qeyd olunanlar əsassız və böhtan xarakterlidir. Mən bunları rədd edir, dərc olunan sənədin saxta olduğunu bildirir və bəzi KİV-lərin reytinq naminə dəqiqləşmə aparmadan yalan məlumat yaymalarından dərin təəssüf hissi keçirirəm".

Əslində isə sabiq başçının adı çəkilən oğlu ilə bağlı ilk dəfə deyildi ki, bu cür məlumatlar yayılırdı. Belə ki, A.İsmayılovun Göyçay rayonunda da müxtəlif biznes sahələri ilə məşğul olduğu barədə xəbərlər dolaşırdı. Hələ 2014-cü ilin əvvəllərində isə o vaxt Sabirabad rayon icra hakimiyyətinin başçısı işləyən Nazim İsmayılovun kiçik oğlunun qəza törətməsi haqda xəbər yayılmışdı. Məlumata görə, "hadisə Pambıq Zavodunun qarşısında baş verib. Atasının xidməti 54 AA 001 nömrə nişanlı "Prado" avtomobilini idarə edən kiçik İsmayılov birdən-birə iki "VAZ 2106" markalı avtomobili əzib. Maşınlardan biri yararsız hala düşüb. Zədələnən "Jiquli"lərdə həmin vaxt adam olmayıb. Onlar yaxınlıqdakı aptekdə imiş. Polis hadisə yerinə gələrək başçının xidməti avtomibilini hadisə yerindən aparıb.

O zaman rəsmi qurumlar bu məlumatı nə təkzib, nə də təsdiq etmişdi.

Daha əvvəllər isə icra başçısının oğlunun adı avtomobillə bağlı başqa bir məsələdə hallanmışdı. "Auto.az" saytında yerləşdirilən bir elan A.İsmayılovu tanıyan vətəndaşların diqqətini çəkmişdi. 2011-ci il istehsalı olan "Toyota Land Cruiser"i 36 min dollara satan Anar İsmayılov öz nömrəsini də saytda yerləşdirmişdi. Elanda maraq çəkən bir hissə də var: o, avtomobilini "Lexus-570" ilə barter etməyə hazır olduğunu bildirirdi. Həmin vaxt yerli KİV-də sabiq icra başçısının oğluna aid avtomobil kolleksiyasından danışılır, həmin kolleksiyada 4-5 "inomarka"nın olduğu deyilirdi. Bu avtomobillərin ümumi dəyəri isə 1-1,5 milyon manat qiymətləndirilirdi.

Həmçinin Nazim İsmayılovun oğlunun müxtəlif xarici ölkələrdə çəkilən fotoları da yayılmışdı. Strateq.az-a göndərilən fotolarda icra başçısının oğlu Anar İsmayılovun səyahət və "xüsusi əyləncələr"ə meyli olduğu açıq sezilirdi. Bundan başqa, sabiq başçı və oğlunun Azərbaycanda çoxsaylı villalarının, hotelinin, restoranının varlığı barədə də konkret faktlar ortaya çıxmışdı.

Üstəlik, qarşı tərəfin mətbuatda yer alan belə iddia və faktlarla bağlı susqunluğu diqqət çəkmişdi. Yalnız Kanadadakı mülk və şirkət məsələsində Nazim müəllim bunu yalanlamaq ehtiyacı hiss eləmişdi. Bu, təsadüfi sayılmır. Hesab edilir ki, sabiq başçı ilə bağlı bardağı daşıran son damla bu olub. Elə N.İsmayılov da bunu başa düşdüyü üçün ortaya atılan iddiaları təkzib etməyi zəruri sayıb. Lakin onun təkzibi heç nəyi dəyişməyib: Saatlıya cəmi 1 il rəhbərlik etdikdən sonra o, işdən uzaqlaşdırılıb.

Yada salaq ki, sabiq başçı oğlunun Kanadadakı mülkü və şirkəti ilə bağlı yazılanları yalanladığı vaxtlarda Azərbaycanda bəzi icra başçılarının rüşvət və korrupsiya səbəbindən həbsi prosesinə start verilmişdi. Görünür, N.İsmayılovun mətbuata təkzib mətni göndərməsində bu prosesdən doğan təlaş da rol oynamışdı...

***Toğrul Əliyev***

# Elçin Quliyev yenidən federasiya prezidenti seçildi



***Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev növbəti 5 illik müddətə Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti seçilib.***

"Unikal" xəbər verir ki, qurumun 2023-cü ilin idman nəticələrinin yekunlarına həsr olunmuş tədbirində prezident, eləcə də vitse-prezidentlər və İdarə Heyəti üzvləri ilə bağlı seçki keçirilib.

# Vardanyanın həbs müddəti uzadıldı

***Qondarma "Dağlıq Qarabağ Respublikasının Dövlət naziri" olmuş Ruben Vardanyan barəsində seçilmiş qətimkan tədbirinin müddəti uzadılıb.***

"Unikal" xəbər verir ki, Səbail Rayon Məhkəməsi Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə qərar qəbul edib.

Qərara əsasən, R.Vardanyanın həbsdə saxlama müddəti daha 4 ay uzadılıb.

Qeyd edək ki, Ermənistan vətəndaşı olan 1968-ci il təvəllüdlü R.Vardanyanın Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

# Xidmət rəisi Mərkəzi Çağırış Komissiyasının iclasını keçirib



***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında müddətli həqiqi hərbi xidmətə yanvar çağırışının gedişi ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmasının, bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin uğurla icra edildiyini iştirakçıların diqqətinə çatdırıb. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamına uyğun olaraq çağırışçıların qoşun növləri üzrə bölgüsünün həyata keçirildiyini, onların təyin olunduqları hərbi hissələrə göndərilməsi prosesinin yekunlaşmaqda olduğunu bildirib.

Mərkəzi Çağırış Komissiyasının iclasında Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə görülən işlər, həmçinin gündəliyə çıxarılan məsələlər müzakirə olunub.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Bu il Cəbrayıl şəhərinə 2158 keçmiş məcburi köçkün qayıdacaq

***Bu il Cəbrayıl şəhərinə köç olacaq, hazırda şəhər mərkəzində 33 yaşayış binası inşa olunur.***



"Unikal" xəbər verir ki, bu barədə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəliyindən bildirilib.

Qeyd edilib ki, Cəbrayıl şəhərinin mərkəzində yaşayış kompleksi inşa olunur: "Kompleksdə 33 yaşayış binası tikilir. 4-5 mərtəbədən ibarət olan bu binalarda 712 mənzil olacaq. Bu il inşaat işləri başa çatdıqdan sonra binalarda 2158 keçmiş məcburi köçkün məskunlaşacaq".

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 11





# Nazir Məcnun Məmmədov Andrey Ravkovla görüşdü

***Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Belarusun Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycanda aqrar sektora dövlət dəstəyi barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Tərəflər aqrar sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Görüşdə Azərbaycan ilə Belarus arasında aqrar sahədə əməkdaşlıq və hüquq-müqavilə bazasının gücləndirilməsi, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, kənd təsərrüfatı sahəsində ən müasir texnologiyaların transferi, aqrar sektorda elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilmə məsələləri müzakirə olunub.

Nazir Məcnun Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji zonası" elan etdiyini və bu ərazilərin böyük aqrar potensiala malik olduğunu diqqətə çatdırıb.

Görüşdə işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı istiqamətində Azərbaycanın dost ölkələrlə əməkdaşlığa hazır olduğu, bu sahədə Belarusun təcrübəsindən yararlanmağın mümkünlüyü qeyd olunub. Tərəflər Belarus və Azərbaycanda hər il təşkil olunan "Belagro" və "Caspian Agro" sərgilərinin əhəmiyyətinə toxunub, bu sərgilərin aqrar sahədə fəaliyyət göstərən iş adamları və fermerlərin yeni məhsul və texnologiyalarla tanış olmasına şərait yaratdığını, beynəlxalq sərgilərdə qarşılıqlı fəal iştirakın iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığı daha da gücləndirəcəyi vurğulanıb.

Görüş zamanı kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində Azərbaycan-Belarus İşçi Qrupunun fəaliyyəti müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

# Ödəmə terminalından 8 min manat oğurlandı




***Ağcabədi rayonunda ötən il ödəmə terminalından oğurluğa cəhd etməkdə şübhəli bilinən şəxs saxlanılıb.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, ötən ilin avqust ayında mağazaların birində yerləşən içərisində 8860 manat pul olan ödəmə terminalından oğurluğa cəhd edilməsi ilə bağlı Ağcabədi Rayon Polis Şöbəsinə məlumat daxil olub. Davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində əməli törətməkdə şübhəli bilinən şəxsin əvvəllər dəfələrlə məhkum olunmuş, rayon sakini Nahid Kərimov olduğu müəyyən edilib. O, Bakı şəhəri ərazisində saxlanılaraq istintaqa təhvil verilib.

Faktla bağlı Ağcabədi RPŞ-də cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Alimpaşa Məmmədovdan müəmmalı gediş

## Sabiq icra başçısı qanunsuz şəkildə əldə etdiyi milyonları geri qaytarır?

***Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədovun cinayət işi üzrə əmlakları üzərinə qoyulmuş həbs qərarı ləğv edilə bilər. Bu barədə yola salmaq üzrə olduğumuz həftə "Qafqazinfo" məlumat yayıb. Saytın əldə etdiyi məlumata görə, bununla iş üzrə mülki iddiaçı qismində tanınmış Sahibkarlığın İnkişafı Fonduna dəymiş ziyan artıq tam ödənilib.***



Məlum olduğu kimi sabiq icra başçısının cinayət işinə görə əmlakları üzərinə həbs qoyulub. Həmin əmlaklara "Şəmkir Səbət" MMC və "Abad Şəmkir" MMC daxildir.

Bu əmlaklar Sahibkarlığın İnkişafı Fondundan kredit öhdəliyi ilə aşağı qiymətə alınıb. İstintaqın gedişi zamanı ödəniş tam yekunlaşmadığı üçün məhkəmənin qərarı ilə əmlaklar üzərinə həbs qoyulub. Gəncə Ağır Cinayətlər Məhkəməsində keçirilən əvvəlki iclasda mülki iddiaçının nümayəndəsi kredit borcunun ödənilməsi qarşılığında əmlaklar üzərindəki həbs qərarının götürülməsini istəmişdi.

Bu gün üçün ümumilikdə 730 min manatlıq kredit borcu tam ödənilib. Növbəti məhkəmə prosesində əmlakların üzərinə qoyulmuş həbs qərarının ləğvi məsələsi müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, A. Məmmədov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib. Vəzifə cinayətlərində ittiham olunan keçmiş icra başçısı məhkəmədə özünü təqsirli bildiyini deyib.

A.Məmmədovun işi üzrə mülki iddiaçı qismində tanınmış Sahibkarlığın İnkişafı Fonduna dəymiş ziyan tam ödənilməsi sabiq icra başçısının qanunsuz yollarla əldə etdiyi əmlakların üzərindən həbs qərarını götürməyə, ən əsası isə həmin əmlakları geri qaytarmağa kifayət edəcəkmi? Artıq bu sual ətrafında müzakirələr başlayıb.

Məsələ burasındadır ki, Şəmkir rayonunun eks-icra başçısı ilə bağlı başlanılmış cinayət işi üzrə araşdırmalar zamanı onun ailə üzvləri haqqında ilginc detallar üzə çıxıb. Belə ki, Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, Şəmkir rayonu Çinarlı bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 2 milyon 844 min manat dəyərində əmlakı olan "Çinarlı Qəsəbə" MMC-nin bütün paylarını oğlu Adilzadə Adil Alimpaşa oğlu və təbeçiliyində fəaliyyət göstərən digər şəxslərə məxsus "Şəmkir Səbət Ticarət Mərkəzi" MMC-yə cəmi 40 manata satıb.

Bundan başqa, Şəmkir şəhər Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsal zavodu olan "Abad Şəmkir" MMC-nin bütün paylarını da hazırda həbsdə olan sabiq başçının öz oğlu Adil Adilzadənin nəzarətinə keçirdib. Həm də vur-tut 180 manata! Nəticədə, o, xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəməsinə yol açıb.

Məsələ bununla da bitmir. Belə ki, A.Məmmədovun mənimsəmə və rüşvət alma yolu ilə pul vəsaitlərinin əldə edilməsinin həqiqi mənbəyini gizlətmək məqsədi ilə 832 min manat vəsaitin oğlu Adil Adilzadənin adına təsis etdiyi "Az Forel" MMC-nin Şəmkir rayonunda yerləşən balıqyetişdirmə və emalı müəssisəsinin tikintisinə və digər xərclərinə yönəltməklə cinayət yolu ilə əldə etdiyi külli miqdarda pul vəsaitlərini leqallaşdırmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Sadalananlardan aydın olur ki, A.Məmmədovun cinayət işində həlledici məqam onun Sahibkarlığın İnkişafı Fonduna vurduğu ziyanla bağlı deyil. Şəmkirin sabiq icra başçısı vəzifədə olarkən daha ciddi qanunsuzluqlara yol verib, nəticədə özü və ailə üzvləri böyük varidata yiyələnib. Ona görə də bəzi qaynaqlar haqqında danışılan 730 min manatlıq kredit borcunun tam ödənilməsinin Alimpaşa müəllimin əmlakları üzərinə həbs qoyulması barədə qərarın ləğv ediləcəyinə gətirib çıxarmayacağını düşünürlər.

Xatırladaq ki, 2022-ci ildə Şəmkir Rayon İcra Hakimiyyətinin həbsdə olan sabiq başçısının bir sıra əmlakları üzərinə həbs qoyulduğu açıqlanıb. Bazar dəyəri 10 milyon manat qiymətləndirilmiş həmin əmlaklar aşağıdakılardır:

1. "Azfarel" MMC balıqyetişdirmə və emalı müəssisəsi (bazar dəyəri 8 milyon 270 min manat)
2. "Abad Şəmkir" MMC-yə məxsus daşınan və daşınmaz əmlaklar (bazar dəyəri 1 milyon 335 min manat)
3. Bakı şəhərində yerləşən iki mənzil (bazar dəyəri 676 min manat)

Onu da deyək ki, məhkəmədə prokuror Alimpaşa Məmmədovun 13 il azadlıqdan məhrum edilməsini istəyib. Hökmün yaxın vaxtlarda açıqlanacağı gözlənilir.

Xatırladaq ki, A.Məmmədov ötən ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub. Onun barəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülüb və məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Sənan Mirzə***

# Axtarışda olan şəxslər Azərbaycana ekstradisiya olundu

***Beynəlxalq müqavilələrdən irəli gələn müddəalara uyğun olaraq Azərbaycan vətəndaşları Əliyev Xalid Əliağa oğlu, Əliyev Raul Firudin oğlunun Rusiyadan, Rəhimov Anar İlqar oğlunun isə Gürcüstandan ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatətləri təmin edilib.***



Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Belə ki, Xalid Əliyev və Anar Rəhimov xeyli miqdarda ziyan vurmaqla, Raul Əliyev isə külli miqdarda ziyan vurmaqla törədilən dələduzluq cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarlar qəbul edilməklə barələrində beynəlxalq axtarış elan edilib.

Yanvarın 24-də qeyd olunan şəxslər Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.

03_27 IYUI-QARA.qxd 1/25/2024 9:37 PM Page 12



## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda QHT-lərin vətəndaş cəmiyyəti quruculuğunda rolu danılmazdır

## Elməddin Behbud: "Vətəndaş cəmiyyətinin ən vacib komponentlərindən olan QHT-lərin sayı hazırda 4 minə yaxındır"



***Hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlıdır. Dövlət-vətəndaş cəmiyyəti əməkdaşlığı ictimai məzmun daşıyır. Dövlətlərin siyasi, sosial-iqtisadi sahədə bir sıra nailiyyətlər əldə etməsi, vətəndaş cəmiyyətinin inkişafından da asılıdır. Respublikamızda dövlət və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıqda dövlətimiz də maraqlıdır.***

Bu gün QHT-lər ölkəmizdə vətəndaş cəmiyyətinin quruculuğu proseslərində fəal iştirak edir. QHT-lər ölkənin ictimai-siyasi, sosial, iqtisadi və mədəni həyatında fəal rol oynayırlar. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti hüquqi baxımdan birbaşa dövlət müdaxiləsi olmayan, lakin vətəndaşların hüquqlarını müdafiə edən liberal qanunlar vasitəsilə tənzimlənən azad fərdlər birliyinə əsaslanır.

Demokratik Azərbaycan Naminə İctimai Birliyin (DANİB) sədri, vətəndaş cəmiyyəti eksperti Elməddin Behbud "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu prosesi Azərbaycan ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra başlayıb. Bu gün ölkəmizdə həmkarlar təşkilatları, vətəndaşların təşəbbüs qrupları, siyasi partiyalar, media və QHT-lər var. Bunlar vətəndaş cəmiyyətinin komponentləridir.

"1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra, vətəndaş cəmiyyəti daha əlverişli şəraitdə inkişaf etmək imkanı əldə etdi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiya həm dövlətçilik, həm də vətəndaş cəmiyyəti üçün mühüm tarixi sənədə çevrildi. Əslində müasir və beynəlxalq standartlara əsasən yaradılmış və fəaliyyət göstərən QHT-lər yalnız Azərbaycanın müstəqillik qazanmasından sonra, əsasən 1995-ci ildə Konstitusiyanın qəbulundan sonra yaradılmışdı. 2000-ci ildə Qeyri-Hökumət Təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi və bu qanunla milli QHT platforması, Milli QHT Forumu yaradıldı. Azərbaycanda milli donor təsisatının yaradılması üçün Hökumət, QHT-lər və ekspertlərin səyləri gücləndirildi, bu da Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası oldu".

Həmsöhbətimiz deyir ki, Azərbaycanda bu gün söz azadlığı, fikir plüralizm inkişaf edərək demokratik cəmiyyət formalaşdırıb: " Ölkəmizdə sahəvi ixtisaslaşmış və universal media orqanları var. Azərbaycanda artıq kağız mediası öz yerini internet mediaya verib. Ən yeni media adlandırılan sosial şəbəkələr artıq medianı önləyir. Ölkəmizdə 30-a yaxın siyasi partiyalar var. Onlar müxtəlif dövrlərdə yaranıblar. Siyasi partiyalarla bağlı ötən il qanuna dəyişiklik olundu. Yeni qanun qüvvəyə mindi ki, bu qanunun icrası nəticəsində 30-a yaxın partiya dövlət reyestrinə alınıb. Azərbaycanda Həmkarlar İttifaqı Konfedrasiyası var. Bu Konfedrasiyanın əmək birliklərində yerli kollektivləri var, onlar işçilərin hüquqlarını qorumaqla məşğuldur. Vətəndaş cəmiyyətinin ən vacib komponentlərindən olan QHT-lərin sayı isə hazırda 4 minə yaxındır. Hazırda ölkəmizdə bu qədər qeyri-kommersiya təşkilatı var. Onlar insan hüquq və azadlıqlarının qorunması, ekoloji maarifləndirmə, gənclərlə iş və digər istiqamətlərdə fəaliyyət göstərirlər. QHT-lərə bağlı dövlət mexanizmləri var. Hazırda dövlət QHT-lərin ictimai aktuallıq kəsb edən layihələrini maliyyələşdirir".

Onun sözlərinə görə, Azərbaycanda QHT-lərin fəaliyyəti üçün demokratik və leqal əsaslar formalaşdırılıb. Milli maraqlar və dəyərlər əsasında fəaliyyət göstərən QHT-lər vətəndaş cəmiyyətinin inkişafına mühüm töhfələr verməklə yanaşı, ictimai münasibətlər kontekstində inteqrasiyanı sürətləndirir. E. Behbud onu da bildirib ki, bu gün dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan vətəndaş cəmiyyəti institutları həyata keçirdikləri layihələrlə istər gənc nəslin milli ruhda tərbiyə olunmasında, istərsə də azərbaycançılıq ideologiyasının təbliğində mühüm rol oynayırlar.

E. Behbud deyir ki, Azərbaycanda vətəndaş cəmiyyəti dövlətin yaratdığı imkanlardan faydalanaraq milli maraqların qorunması istiqamətində də iş aparır. Onun sözlərinə görə, ölkəmiz işğal altında olan torpaqları azad etsə də, Azərbaycanın bu gün öz haqq səsini beynəlxalq seqmentə çatdırmasına ehtiyac var. Vətəndaş cəmiyyəti eksperti, bu mənada QHT-lərin üzərinə məsuliyyət düşdüyünü söyləyir. O bildirir ki, bu gün QHT-lər media ilə də əməkdaşlıq edir.

"Vətəndaş cəmiyyətinin inkişaf etdiyi ölkələrin təcrübəsi göstərir ki, KİV ilə QHT əlaqələrinin yüksək səviyyədə olduğu dövlətlərdə demokratik dəyərlərə də ciddi riayət olunur. Vətəndaş cəmiyyətinin əsas strukturlarını təşkil edən KİV-lərin və QHT-lərin yaranması, formalaşması sahəsində görülən işlər, meydana çıxan problemlərin aradan qaldırılması bütövlükdə cəmiyyətin və dövlətin inkişafına xidmət edir. QHT- KİV münasibətlərinə nəzər saldıqda ilk öncə onu qeyd etmək lazımdır ki, burada qazanan və itirən hər iki tərəfdir. Əlaqələrin genişlənməsində və inkişafında həm QHT-lər, həm də KİV maraqlı olmalıdır" deyə Elməddin Behbud bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "AŞPA "ideoloqları"nın anti-Azərbaycan fəaliyyəti bumeranq effekti verdi"

***"Avropa Şurası Parlament Assamleyasında anti-Azərbaycan mövqenin əsassız iddialarla, bəhanələrlə ifadə edilməsi təəssüf doğurur. Onlar fikirlərini bu şəkildə əsaslandırırlar ki, Azərbaycan Avropa Şurasının nümayəndələrini Laçın dəhlizinə buraxmayıb və Avropa Şurası ölkəmizdə prezident seçkilərini müşahidə etmək üçün dəvət olunmayıb".***

Milli Məcisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov deyib ki, Avropa Şurası həmin təşkilatdır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra 1992-ci ildən bu təşkilata üzv olmaq üçün müraciət edib: "Əslində bizim o zaman bu təşkilata üzv olmaq üçün müraciət etməyimizin əsas səbəbi keçmiş Qarabağ münaqişəsinin həlli ilə bağlı idi. Yəni, o zamanlar Azərbaycan ərazisinin bir hissəsi işğal altında idi. 1992-ci ildə etdiyimiz müraciətə təxminən 10 ildən sonra Ulu Öndər Heydər Əliyevin apardığı uğurlu, hücum xarakterli diplomatıyanın nəticəsində cavab verildi və 2001-ci ildə Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü oldu. Avropa Şurasına üzv olduqdan sonra Azərbaycan ilə bu qurum arasında münasibətlər çox yüksək səviyyədə olsada, erməniпərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə ediblər. Lakin münasibətlərin yüksək səviyyəsinə baxmayaraq, torpaqlarımızın 30 ilə yaxın işğal altında olduğu dönəmdə Avropa Şurası tərəfindən Ermənistana qarşı hər hansı ciddi bəyanat səsləndirilmədi, heç bir sənəd qəbul edilmədi. Məhdudiyyətlə bağlı addımın atılmaması bizə onu deməyə əsas verdi ki, artıq Avropa Şurası da qərəzli, ədalətsiz yanaşmasından əl çəkmək istəmir. Təbii ki, bu hadisə, günümüzdə ən çox təşkilatlanmış region olan Avropanın və onun təşkilatlarının nüfuzuna çox ciddi zərbədir.

Məlumdur ki, tarixən Fransa Avropa Şurası və onun Parlamentində "meydan sulayır" və bu işdə Almaniyanı da təsir dairəinə salır. Bir sıra hallarda Fransa öz istəklərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır. Buna səbəb Fransanın xarici siyasətində yaşanan ardıcıl uğursuzluqlar və adıçəkilən ölkənin nüfuzdan düşməsidir. Buna görə də Fransa Almaniya vasitəsilə AŞPA-nı Azərbaycana qarşı vasitə kimi istifadə etməyə çalışır. Fikrimcə, Avropa Şurası və üzv dövlətlər bu məsələdə həssaslıq göstərməlidir. Çünki Azərbaycan dövləti 90-cı illərin dövrünü yaşamır. Bu gün Azərbaycanla zor dilində danışmaq, ona yuxarıdan aşağı baxmaq və maraqlarını heçə saymaq nəinki Avropa Şurasına, heç bir təşkilata və dövlətə müsbət heç nə qazandırmayacaq. Bu baxımdan, AŞPA "ideoloqları" anti-Azərbaycan fəaliyyətinin bumeranq effekti verəcəyini bilməli idilər. Hesab edirəm ki, Azərbaycan nümayəndə heyətinin AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarı alqışa layiq haldır".

# Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək

***Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sərəncam imzalayıb.

Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlamaq tapşırılıb. Nazirlər Kabineti isə sərəncamdan irəli gələn məsələləri həll edəcək.

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 13



# Azərbaycanın rəqəmsal inkişaf marşrutu...

***Telekommunikasiya sahəsi dünyada ən dinamik şəkildə inkişaf edən sahələrdəndir. Əhalinin internetə olan tələbatının qarşılanması və ən müasir texnologiyaların tətbiqi ilə mütərəqqi cəmiyyətlərlə aramızda olan "rəqəmsal uçurum"un aradan qaldırılması üçün ölkəmizdə son 20 ildə intensiv fəaliyyət göstərilib və müxtəlif irimiqyaslı layihələr icra olunub.***

"Unikal" xəbər verir ki, rəqəmsallaşma müasir dövrümüzün sürətlə inkişaf edən, bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən prosesdir. Qabaqcıl ölkələrin təcrübəsindən çıxış edərək demək olar ki, rəqəmsallaşma prosesi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfə verilməsi ilə iqtisadiyyata və insanların rifahına müsbət təsir göstərir.

Lakin dayanıqlı infrastruktur olmadıqda hədəfə nail olmaq qeyri-mümkündür. Dayanıqlı infrastruktur "rəqəmsal uçurum"un aradan qaldırılmasında mühüm rol oynayır.

### Gəlin tarixə nəzər salaq

2018-ci ildə ilk dəfə telefoniya xidmətlərində səs zənglərini, videokonfransları, ani mesajlaşmanı və media paylanmasını dəstəkləyən SIP (Session Initiation Protocol) - Sessiyanın Başlanması Protokolu tətbiq edilib. Hazırda da infrastruktur layihələrinə paralel olaraq abunəçilərin miqrasiyası davam edir. 2006-2020-ci illərdə NGN (Next Generation Networks) yeni nəsil şəbəkə avadanlıqları istismara verilib. Bu tip avadanlıqlar istifadəçilərə müxtəlif xidmət təminatçılarına məhdudiyyətsiz giriş təklif edir. Bu, istifadəçilərə ardıcıl və hər yerdə xidmətlərin göstərilməsinə imkan verəcək ümumiləşdirilmiş mobilliyi dəstəkləyir. Eyni dövrdə DSLAM (Digital Subscriber Line Access Multiplexer) rəqəmsal abunəçi xətti ilə telekommunikasiya xidmətinin (internet xidmətinin) göstərilməsi üçün avadanlıqlar istismara verilib. Ölkəmizdə ilk dəfə 2006-cı ildə ADSL - (Asymmetric Digital Subscriber Line) internet xidmətinin verilməsi üçün rəqəmsal abunəçi xətti və VDSL - (Very high-speed Digital Subscriber Line) yüksəksürətli rəqəmsal abunəçi xətt?i texnologiyası tətbiq edilib. Bununla da Azərbaycanda internet istifadəçisi üçün məlumatın ötürülməsi adi analoq telefon xətti ilə (mis kabellə), abunəçi qurğusu - ADSL modemi və ATS-də (Avtomat Telefon Stansiyası) bilavasitə abunəçinin xəttində quraşdırılmış multipleksor (ing. DSL Access Multiplexer, DSLAM) vasitəsilə həyata keçirilməyə başlanılıb. Nəticədə DSLAM telefon şəbəkəsinə məxsus məhdudiyyətlərdən asılı olmayaraq abunəçilərin DSL (Digital Subscriber Line) xətlərini vahid yüksəksürətli magistral şəbəkəyə birləşdirib.

2018-ci ildə transport (daşıyıcı transmissiya avadanlıqları) şəbəkə sistemlərinin yenilənməsi layihəsi çərçivəsində DWDM (Dense Wavelength Division Multiplexing) kanalların dalğa uzunluğuna görə sıxlaşdırılması avadanlığı, sıx dalğa uzunluğunu bölmə multipleksoru texnologiyasının tətbiqinə başlanılıb. MPLS (Multi Protocol Label Switching) - etiketlərin istifadəsinə əsaslanan çox protokollu şəbəkələrdə sürətli paket keçid texnologiyasının tətbiqi həyata keçirilib. Plana müvafiq olaraq layihənin əsas hissəsi 2023-cü ildə yekunlaşıb. Hazırda tranzit dəhlizlərinin yaradılması ilə birlikdə şəbəkədə genişləndirmələr və müvafiq proqram təminatlarının yenilənməsi həyata keçirilir.



2019-cu ildə "Aztelekom" MMC-nin kommutasiya şəbəkə sistemlərinin yenilənməsi layihəsi çərçivəsində İMS (IP Multimedia Subsystem) internet protokolu əsasında idarə olunan çoxsaylı giriş şəbəkələrində işləyən və səs trafiki mübadiləsinin idarə edilməsi funksiyasını daşıyan yeni texnologiya tətbiq edilib. Bu texnologiyanın tətbiqinin nəticəsi olaraq kommutasiya şəbəkə sistemlərinin coğrafi baxımdan tam olaraq ehtiyatlanması, alternativliyi təmin edilib. Prosesin tamamlanması və tam miqrasiyasının həyata keçirilməsi işləri 2025-ci ildə yekunlaşacaq.

2022-ci ildən etibarən "Aztelekom" MMC-nin magistral fiber-optik transport şəbəkəsinin alternativliyinin təmin edilməsi üçün yeni magistral kabellərin tikintisinin davam etdirilməsi üzərində intensiv işlər aparılır. Bu layihənin də 2025-ci ildə yekunlaşması nəzərdə tutulub.

### Fürsətlərin doğru dəyərləndirilməsi

Azərbaycanın əlverişli coğrafi mövqeyi və insan potensialı, habelə son illərdə qəbul edilmiş dövlət proqramları, fərman və sərəncamlar bunun üçün münbit şərait yaradır. Qəbul edilən qərarlar mühüm təbii üstünlüklərdən ən yüksək səviyyədə fayda əldə etməyə imkan verib.

Strateji baxımdan mühüm geosiyasi məkanda - Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan çox mühüm beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin kəsişməsində yerləşməsi rəqəmsal tranzit baxımından ölkəmizin rolunu daha da artırdı. 2023-cü ildən etibarən ölkəmiz Şimal-Cənub və Qərb rəqəmsal tranzit dəhlizlərinin əsas komponentinə çevrilib. "Aztelekom" MMC-nin mövcud DWDM/IP-MPLS şəbəkəsində planlaşdırılan genişləndirmələr və müvafiq proqram təminatlarının yenilənməsi, magistral fiber-optik transport şəbəkə sistemləri üzərindən beynəlxalq internet trafikinin daşınması funksiyasının istismarını nəzərdə tutan layihə 2024-cü ildə yekunlaşacaq.

### Gələcəyin texnologiyası daha əlçatandır

Ölkənin ən ucqar yaşayış məntəqələrində də əhali və təşkilatlar üçün yüksəksürətli internetə çıxış, həmçinin istifadəni asanlaşdırmaq məqsədilə 2021-ci ildən etibarən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən "Onlayn Azərbaycan" layihəsinin tətbiqinə başlanılıb. Layihə müddətində mövcud ADSL avadanlığının müasir IMS platforması ilə işləyən GPON (Gigabit Passive Optical Network) avadanlıqla əvəz edilməsi, köhnə mis magistral kabel infrastrukturunun optik kabellərlə əvəzlənməsi və optik paylayıcı şəbəkənin qurulması həyata keçirilir.

Bu texnologiya internet xidmətinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır, eləcə də IPTV və digər əlavə xidmətlər göstərməyə texniki imkanlar yaradır. Optik kabel texnologiyasının son trendi hesab edilən GPON texnologiyası texniki olaraq, 1 Gbit/s-dək sürətli internetin təmin edilməsi üçün imkan yaradır. Bu optik texnologiya təbii deformasiyaya dözümlüdür və məlumatı (informasiyanı) ən sürəti şəkildə ünvana çatdırır.

Sözügedən layihə çərçivəsində 2024-cü ilin sonuna qədər bütün əhalinin yüksəksürətli internetlə təmin edilməsi, xətt şəbəkə infrastrukturunun optikləşdirilməsi, GPON texnologiyası vasitəsilə fiber-optik xətt üzərindən 100 Mbit/s-ə qədər kəsintisiz internet və telefon xidmətlərinin verilməsi və GPON texnologiyası əsasında potensial tətbiqlərin inkişaf etdirilməsi hədəflənib.

Layihə çərçivəsində 2023-cü il ərzində Azərbaycanda 1,1 milyondan artıq ev təsərrüfatı və biznes subyektlərinin genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Ümumilikdə isə 1 milyon 916 min ev təsərrüfatının genişzolaqlı internetə çıxışına imkan yaradılıb. Bu, ölkədə mövcud ev təsərrüfatlarının və biznes subyektlərinin 66%-ni təşkil edir. Sözügedən layihə üzrə görülən işlərin 2024-cü ilin sonuna kimi yekunlaşacağı planlaşdırılır.

2023-cü ilin iyul ayında "Bakı Telefon Rabitəsi" MMC Azərbaycanda ilk dəfə olaraq 1 Gbit/s internet sürət testlərini uğurla başa çatdırıb və cari ilin sentyabr ayında istehlakçılara ölkədə ilk dəfə 250 Mbit/s sürətində internet tarifini təqdim edib.

### Evimizə qayıdırıq

2022-ci ildən etibarən işğaldan azad olunmuş ərazilərdəki fəaliyyətlər üzrə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində tədbirlərin təşkili, magistral yol layihələrinin hazırlanması, bərpa və quruculuq işlərinin bir hissəsi də telekommunikasiya infrastrukturunun tikintisi və qurulması ilə bağlıdır. Belə ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin əsas tərkib hissəsi olaraq "Aztelekom" MMC Laçın şəhərində 800 evdə, Şuşa şəhərində isə ilkin olaraq 500 evdə GPON texnologiyasının tətbiq olunması üçün layihə hazırlayıb və şəbəkə quraşdırıb. Həmçinin Laçın rayonunun Zabux və Sus kəndləri də GPON texnologiyası əsasında layihələndirilib. "Aztelekom" MMC tərəfindən Xankəndi, Xocalı ərazilərində internet magistral xətti və genişzolaqlı internet şəbəkəsi təmin edilib. Qarabağ bölgəsinin bütün rayonlarına beynəlxalq telefon kodu verilib.

### Mərkəzdə Azərbaycan vətəndaşı dayanır

"Rəqəmsal uçurum"un aradan qaldırılması üçün son 20 ildə görülən işlər öz bəhrəsini verməkdədir. "Ookla" şirkəti tərəfindən təqdim edilən son hesabata görə, Azərbaycanda genişzolaqlı internetin sürəti son 12 ayda artaraq ortalama 35.25 Mbit/s-i keçib. Bu o deməkdir ki, ölkədə genişzolaqlı internetin sürətində ümumilikdə 30% illik artım olub.

Azərbaycan vətəndaşını mütərəqqi və dayanıqlı telekommunikasiya xidmətlərinin istehlakçısı etməkdə davam etmək, onu dəyişən texnoloji ekosistemin daimi rezidentinə çevirmək mütəxəssislərin əsas missiyası kimi dəyişməz qalır.

Ölkə vətəndaşının rəqəmsal imkanlara çıxışının təmin edilməsi birinci növbədə texnoloji tərəqqini əldə rəhbər tutan sarsılmaz siyasi iradənin, yorulmaz əməyin məhsuludur. Bu iradənin qayəsi isə Azərbaycan vətəndaşının genişzolaqlı texnologiyaların tətbiqi mövzusunda dünyanın ən üstün infrastrukturundan faydalanması və ən müasir rəqəmsal imkanlara çıxış əldə etməkdir.

Bu iradənin davamçıları olan mütəxəssislərimiz Azərbaycanın müvafiq sahə üzrə qabaqcıl ölkələrdən birinə çevrilməsinə, rəqəmsal iqtisadiyyatın ölçülməsi, həmçinin koordinasiya edilmiş şəkildə inkişaf etdirilməsinə xidmət göstərməyə davam edəcəklər. Onlar ölkəmizdə rəqəmsal infrastruktur və xidmətlər, müvafiq sahədə qanunvericilik, maliyyə resurslarının əlçatanlığı və rəqəmsal bacarıqların inkişaf etdirilməsi də daxil olmaqla, rəqəmsal iqtisadiyyatın bütün komponentləri üzrə inkişafın bir hissəsi olacaqlar.

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:37 PM Page 14



# Ölümsüz həyatı qazananlar...



***Yalçın özünü dərk edən gündən Vətəninə, xalqına ürəkdən bağlanıb. Elə həyatının mənasını da onlara təmənnasız xidmətdə görüb. Odur ki, gözünü qırpmadan Vətənin çətin günündə, yəni, 1995-ci ilin mart hadisələrində 19 yaşında özünü ona fəda edib. Bununla da mənalı həyat yolu örnək olaraq tarixə yazılıb.***

Yalçın Nəsirov 23 yanvar 1976-cı ildə Astara rayonunun Sərək kəndində dünyaya göz açıb. Orta məktəb illərində nümunəvi davranışı, çalışqanlığı, vətənpərvərliyi onu müəllimlərin, şagirdlərin sevimlisi edib. Humanitar fənlərini böyük maraq öyrənib. Futbol, voleybol oynamağı çox sevib. Tez-tez yarışlara qatılıb. Həmçinin, məktəbdə keçirilən tədbirlərdə fəal olub, söylədiyi Vətəni tərənnüm edən şerlərlə hamını heyran qoyub. Bu, minvalla Yalçın orta məktəbi əla qiymətlərlə başa vurub. El-obada da təmiz ürəkli, qeyrətli, yurdsevər bir yeniyetmə olaraq hörmət qazanıb.

Yalçın Nəsirov 1994-cü ildə ordu sıralarına gedib. Daxili Qoşunların tərkibində Lökbatanda 2 ay hərbi təlim keçdikdən sonra əsgəri xidmətini Tərtər və Şamaxı rayonlarında davam etdirib. Doğma Azərbaycanın keşiyində ləyaqətlə durub, komandanlığın tapşırıqlarını vaxtında, dəqiq yerinə yetirib. Son dərəcə mərd, cəsur, ağıllı bir Vətən sevdalısı kimi əsgərlərin, zabitlərin sevimlisi olub.

Yenicə müstəqillik yoluna qədəm qoyan respublikamızda 1995-ci ilin məlum mart hadisələri başlananda bir qrup quldur dəstənin özbaşınalığı, silaha sarılmaları Yalçını bərk narahat edib. Vətənin bu, ağır günündə xalqımızın digər qeyrətli oğulların cərgəsində silahlı dəstələrin qarşısını almaq üçün sinəsini sipər edib. Atılan güllələrdən biri Yalçının Vətən sevgisi ilə döyünən ürəyinə dəyib. Çox qan itirir, onu ölümün pəncəsindən xilas etmək üçün təcili Sabunçu rayon xəstəxanasına aparıblar. Təəssüf ki, həkimlər nə qədər çalışsalar da, onu həyata qaytara bilməyib. 1995-ci il martın 24-də Yalçın şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşub. Dünyaya gəldiyi Sərək kəndindəki qəbiristanlıqda sevdalandığı Vətən torpağının qucağına sığınıb.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli Fərmanı əsasında əlçatmaz, ünyetməz dünyasından gələcəyə boylanan, ömrünü Vətən üçün yaşayan Yalçın Nəsirov ölümündən sonra ”Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülüb. Həmçinin Sərək kənd orta məktəbi cəsur, igid döyüşçünün adını daşıyır, Astara rayonundakı Qəhrəmanlar bağında Yalçın Nəsirovun büstü ucalır.

Vətənin azadlığı, müstəqilliyi, xalqının xoşbəxt gələcəyi naminə şəhid olub ölməzliyə qovuşan qəhrəman Yalçın Nəsirov yaşasaydı, 48 yaşını qeyd edəcəkdi. Həmişə öz oğlunun xatirəsini əziz tutan Astara camaatı bu, münasibətlə onun yatdığı müqəddəs torpağı ziyarət etdilər, məzarına gül dəstələrini qoydular.

Bəli, Vətənin və millətin yolunda canından keçənlər heç vaxt unudulmur.

*Zəfər Orucoğlu,*
*AJB üzvü*

# Təhsil ölüm riskini azaldır - Araşdırma

***Təhsil yaşından, cinsindən, yerindən, sosial və demoqrafik mənşəyindən asılı olmayaraq həyatı xilas edir.***



”Unikal” xəbər verir ki, bu barədə Vaşinqton Sağlamlıq Ölçmələri və Qiymətləndirmə İnstitutunun (IHME-CHAIN) tədqiqatçıları araşdırma aparıblar.

Tədqiqatçılar müəyyən ediblər ki, hər əlavə təhsil ili ilə ölüm riski 2% azalır. Bu o deməkdir ki, 6 illik ibtidai məktəbi bitirənlərin ölüm riski orta hesabla 13% azdır.

Alimlər təhsilin təsirini digər risk faktorları ilə (məsələn, sağlam qidalanma və pis vərdişlər) müqayisə etmiş və nəticələrin oxşar olduğunu müəyyən etmişlər. Məsələn, 18 illik təhsilin faydasını çoxlu tərəvəz yeməyin faydası ilə müqayisə etmək olar. Məktəbi tərk etmək isə 10 il ərzində gündə beş və ya daha çox spirtli içki içmək və ya hər gün on siqaret çəkmək qədər zərərlidir.

Təhsilin sağlamlıq faydaları gənclərdə açıq şəkildə əks olunsa da, yaşlı insanlar (hətta 70 yaşdan yuxarı olanlar) da təsirini hiss edə bilirlər. Tədqiqatçılar insanların yaşadığı ölkənin yerinin və sərvətinin heç bir əhəmiyyət kəsb etmədiyini də müəyyən ediblər.

İşdə 59 ölkədən 10 mindən çox məlumat nöqtəsi olan 600 elmi məqalənin meta-analizindən istifadə edilib. İşlərin əksəriyyəti yüksək gəlirli ölkələrdə aparılıb, müəlliflər qeyd edirlər ki, aşağı və orta gəlirli ölkələrdə daha çox tədqiqata ehtiyac olduğunu vurğulayır.

*Gülayə Mecid*

# Nazirliyin rəsmi internet portalında “Elektron Resept” linki istifadəyə verilib




***Səhiyyə Nazirliyi tərəfindən istifadəyə verilən “Elektron Resept” sistemi ilə bağlı əhali və tibb işçiləri arasında maarifləndirmənin daha da genişləndirilməsi, istifadəsinin əlçatanlığının təmin olunması üçün nazirliyin rəsmi internet resursu olan sehiyye.gov.az portalında xüsusi link yaradılıb.***

Bu barədə ”Unikal”a nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Linkdə pasiyentlər və həkimlər üçün “Elektron Resept” sistemi ilə bağlı videotəlimatlar yerləşdirilib. Bu videotəlimatlar vasitəsilə həkim və pasiyentlər rahat, tam aydın tərzdə “Elektron Resept”dən yararlanma qaydaları ilə tanış ola bilərlər.

Eyni zamanda, linkdə yerləşdirilən QR kodlar vasitəsi ilə mobil cihazlardan istifadə edərək “Elektron Resept” sisteminə daxil olmaq mümkündür.

Linkin istifadəyə verilməsində əsas məqsəd “Elektron Resept” sistemi barədə pasiyent və həkimlər arasında məlumatlılığın təmin edilməsi, sistemin istifadəsinin optimallığının artırılması və bu sahədə məmnunluğun təmin edilməsidir.

Sistemin istifadəsi ilə bağlı hər hansı sual yaranarsa Səhiyyə Nazirliyinin Çağrı Mərkəzi ilə (tel: (012) 596 07 12) əlaqə saxlaya bilərsiniz.

# Azərbaycanda poçt tarifləri artırıla bilər? - Rəsmi açıqlama

***Azərbaycanda universal poçt xidmətləri üzrə tarixlərin artırılması üzrə hər hansı təklif yoxdur.***

”Unikal” xəbər verir ki, bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus ”Azərpoçt” MMC-nin İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən İsi Mustafayev ötən ilin yekunları ilə bağlı hesabat tədbirində bildirib.

”Xərclərimizin 60 %-ni işçilərin əməkhaqqı təşkil edrr. Minimum əməkhaqqının artırılması haqqında qərarlar olarsa, bu, bizim xidmətlərin maya dəyərinə təsir edər. Lakin indiki halda tariflərlə bağlı hər hansı dəyişiklik gündəmdə deyil”,- deyə o qeyd edib.

# Şair Əli Kərimin oğlu vəfat etdi



***Azərbaycanın tanınmış alimi, filologiya üzrə elmlər doktoru, professor Paşa Kərimov vəfat edib.***

”Unikal” xəbər verir ki, görkəmli filoloq 65 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, P.Kərimov mərhum şair Əli Kərimin oğludur.

# Ağsuda ötən il heyvandarlıq sahəsi üçün uğurlu olub



***Ağsuda 2023-cü ildə kənd təsərrüfatında irəliləyiş əldə olunmuşdur. Ötən ildə kənd təsərrüfatının ümumi məhsulu 147,7 milyon manat olmaqla 2022-ci ildəkindən 13,0 faiz çox olub.***

Kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlıqda uğurlu nəticələr əldə olunub.

Belə ki, ailə-kəndli təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrində iri buynuzlu mal-qaranın sayı 38805, o cümlədən inək-camışların sayı 18926, qoyun-keçilərin sayı isə 135008 baş olub ki, bu da 2022-ci ildəkindən çoxdur. Mal-qaranın baş artımı , eləcə də daha məhsuldar cinslərlə təminat sayəsində heyvandarlıq məhsullarının istehsalı artıb. Diri çəkidə ət istehsalı 5386 ton, süd (fiziki çəkidə) 31765 ton, yumurta istehsalı (min ədədlə) 14221 ədəd, yun istehsalı isə 326 ton olub.

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:38 PM Page 15



# "Pulumuz var, bəxtimiz gətirmir" - Paşinyan



***"Bir vaxtlar elə gəlirdi ki, pul ən böyük problemdir və pul olsa, bütün məsələlər həll olunacaq".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin bu gün keçirilən iclasında deyib.

"İndi belədir ki, pulumuz var, bəxtimiz gətirmir, yaradıcı yanaşmaq lazımdır ki, gözlənilən məktəblər, tibb məntəqələri, yollar olsun. Bu mövzu ilə məşğul olan hökumət üzvləri ilin əvvəlindən çox ağır əhval-ruhiyyədədirlər", - deyə Paşinyan qeyd edib.

*Ağarza Elçinoğlu*

# Litvanın XİN rəhbəri Kiyevə getdi



***Bu gün Litvanın xarici işlər naziri Qabrielus Landsberqis Ukraynanın paytaxtına səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə o , "X" sosial şəbəkəsində yazıb.

"Mən Litvanın necə daha çox kömək edə biləcəyini öyrənmək üçün indiyə qədər tanış olduğum ən ruhlandırıcı avropalıların paytaxtına qayıtdım. Ukraynaya şöhrət!" - Landsberqis bildirib.

*Zərifə Nağıyeva*

# İsrail Qətəri HƏMAS-la əməkdaşlıqda ittiham edib

***İsrailin maliyyə naziri Bezalel Smotriç Qətəri Fələstin HƏMAS hərəkatını məhv etmək səylərinin qarşısını almaqda ittiham edib.***

"Unikal" xəbər verir ki, nazir bunu Aşkelonda keçirilən İsrail Müdafiə və Təhlükəsizlik Forumunun konfransında deyib.

O, Dohanı HƏMAS ilə əməkdaşlıq etdiyini iddia edib. "Qətər terroru təşviq edir, terroru maliyyələşdirir, terroru yayır və ikili oyun oynayır", - Smotriç bildirib.

İsrail Maliyyə Nazirliyinin rəhbərinin sözlərinə görə, Qətər HƏMAS tərəfindən saxlanılan israilli girovların geri qaytarılmasına "ən böyük maneədir".

*Gülayə Mecid*

# Bayden Türkiyə ilə bağlı ABŞ Konqresinə məktub göndərdi

***ABŞ prezidenti Co Bayden Konqresin əsas komitələrinin rəhbərlərinə məktub göndərərək, F-16 qırıcılarının Türkiyəyə satışı ilə bağlı rəsmi bildiriş prosesinə başlamaq niyyətini açıqlayıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, qırıcıların Türkiyəyə satılması prosesi Ankaranın İsveçin NATO-ya daxil olmasını ratifikasiya etməsi ilə paralel şəkildə həyata keçiriləcək.

Bayden Senatın Xarici Əlaqələr və Nümayəndələr Palatasının Xarici Əlaqələr komitələrinin yüksək səviyyəli Respublikaçı və Demokrat üzvlərinə yazdığı məktubda Konqresi satışı gecikmədən təsdiqləməyə çağırıb.

# Türkiyədə İŞİD üzvü olan 28 nəfər saxlanıldı

***Türkiyənin 9 vilayətdə İŞİD terror təşkilatına qarşı eyni vaxtda həyata keçirilən "Qəhrəmanlar-46" əməliyyatlarında 28 şübhəli saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya "X" hesabında açıqlama verib.

Onun sözlərinə görə, "Qəhrəmanlar-46" əməliyyatları çərçivəsində; İstanbulda 7, Ankara və Sakaryada 3, Qaziantep və Dənizlidə 2, Adanada 4, Düzce və Yalovada hər birində bir, Bursada isə 8 şübhəli tutulub.

*Gülayə Mecid*

# "Əkiz qüllələrə hücum olmayıb" - Tramp

***Sabiq prezident, ABŞ Respublikaçılar Partiyasının aparıcı namizədi, milyarder Donald Tramp Lakoniya şəhərində (Nyu-Hempşir) çıxışı zamanı şok açıqlama verib.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Tramp Dünya Ticarət Mərkəzinin qüllələrinə hücum olmadığını bildirib.

Siyasətçinin sözlərinə görə, "o dörd il susdurulub, amma indi Tramp öz sözünü deməyə qadirdir": "Mən hər zaman deyirəm: Dünya Ticarət Mərkəzinin qüllələrinə hücum olmayıb, bizə göstərdikləri kimi heç bir hücum olmayıb və bu işdə başqa ölkələr iştirak edib...".

Tramp hesab edir ki, adı açıqlanmayan qüvvələrin hərəkətləri milyonlarla insanın ölümünə və 9 trilyon dollar məbləğində böyük və israfçılığa səbəb olub. Bundan əlavə, Birləşmiş Ştatlar özünü Yaxın Şərqdə müharibəyə cəlb edib.

"Biz milyonlarla insanı öldürdük... və nəyə nail olduq? Heç nə! Biz yalnız ölüm və qan aldıq" , - deyə Tramp bildirib.

Xatırladaq kii, rəsmi versiyaya görə, 2001-ci il sentyabrın 11-də terrorçular ABŞ-də 4 təyyarəni qaçırıb, ikisi isə Dünya Ticarət Mərkəzinin qüllələrinə hücum edib. Terror aktı nəticəsində 2977 nəfər həlak olub, 24 nəfər itkin düşüb.

# "İl-76 qəzası ilə bağlı beynəlxalq araşdırma lazımdır" - Zelenski

***Ukrayna Rusiyanın Il-76 hərbi-nəqliyyat təyyarəsinin Belqorod vilayətində qəzaya uğraması ilə bağlı beynəlxalq araşdırmanın aparılmasında israrlı olacaq.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski videomüraciətində bildirib.

Zelenskinin sözlərinə görə, təyyarə qəzasının Rusiya ərazisində, Ukraynanın nəzarətindən kənarda baş verdiyini nəzərə alaraq, bütün aydın faktları araşdırmaq lazımdır.

Ukrayna prezidenti həmçinin bildirib ki, hadisə ilə bağlı Ukraynanın müdafiə naziri Rustem Umerov, Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı Valeri Zalujni, Baş Qərargah rəisi Sergey Şaptala və Baş Kəşfiyyat İdarəsinin əməkdaşı Kirill Budanovun məlumatlarını dinləyib.



Qeyd edək ki, ötən gün Rusiyanın İl-76 hərbi təyyarəsi Belqorod vilayətində qəzaya uğrayıb. Hadisə nəticəsində 65 ukraynalı məhbus və 9 nəfər rusiyalı ölüb.

*Ağarza Elçinoğlu*

# "Ukraynanın öz əsirlərini bir gündə öldürməsi dəhşətdir" - Peskov

***Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərlə söhbətində göyərtəsində öz hərbi əsirləri olan İl-76 təyyarəsini Belqorod yaxınlığında vuran ukraynalı hərbçilərinin hərəkətini dəhşət adlandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı məlumat yayıb.

"Əsirlərin dəyişdirilməsi tam sükutla baş verən prosesdir.



Ukraynalıların evdə olması lazım olan əsir vətəndaşlarını sözün əsl mənasında bir gündə öldürməsi tamamilə dəhşətdir. Bu, sadəcə olaraq dəhşətdir", - o qeyd edib.

Kreml nümayəndəsi aydınlaşdırıb ki, hadisənin təfərrüatları artıq səlahiyyətli orqanlar tərəfindən dəqiqləşdirilir.

Xatırladaq ki, 24 yanvar tarixində Rusiya Müdafiə Nazirliyinin İl-76 təyyarəsi Ukrayna SQ tərəfindən vurulub. Hadisə nəticəsində təyyarənin göyərtəsində olan 65 ukraynalı əsir və 9 rus həyatını itirib.

*Gülayə Mecid*

# "Azərbaycan hüquqi məsələlər təqdim etdi" - Mirzoyan

***"Azərbaycan Ermənistanın Konstitusiyasında Qarabağın adı çəkilən Müstəqillik Bəyannaməsinə istinadın olmasını problemli hesab edir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib.

"Onlar bu məsələni qaldırdılar, dedilər ki, bu problemdir. Hüquqi məsələlər təqdim etdilər", - deyə Mirzoyan açıqlayıb.

XİN rəhbəri qeyd edib ki, sülh müqaviləsi layihəsində Ermənistan Konstitusiyası ilə bağlı heç bir müddəa yoxdur: "Ümumi sülh prosesində tərəflər bir-birinin hüquqi problemlərini görür və izahat verirlər. Bu cür müzakirələr hələ davam edəcək".



Qeyd edək ki, yanvarın 19-da Ermənistanın baş naziri Nikol Paşinyan yeni Konstitusiyanın qəbul edilməsinin zəruriliyini bəyan edib.

*Ağarza Elçinoğlu*

03_27 IYUl-QARA.qxd 1/25/2024 9:38 PM Page 16



# Qurban Qurbanov Xabi Alonso ilə nələri müzakirə etdi?

***Almaniyanın "Bayer" klubunun düşərgəsində olan "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Leverkuzenə səfərinin məqsədi ilə bağlı fikirləri bölüşüb.***

O, klubun rəsmi saytına açıqlamasında "Bayer"in oyun üslubunun diqqətini cəlb etdiyini və buna görə də komandanın baş məşqçisi Xabi Alonso ilə görüşmək istədiyini bildirib:

"Çoxdan idi ölkə xaricində belə tədbirdə olmamışdım. "Bayer"in oyun üslubu və uğurlu nəticələri məni çox cəlb etdi. Xabi Alonsonun iş prinsipləri çox maraqlı idi. O, zəngin futbolçu karyerası ərzində çox böyük məşqçilərin rəhbərliyi altında çıxış edib. İspaniyalı mütəxəssis məşqçi fəaliyyətində qısa müddətdə kifayət qədər uğur qazanmağa nail olub. Alonsonun özünün, vaxtilə onun oynadığı komandalarda çalışmış mütəxəssislərin iş prinsipləri ilə də maraqlanmaq istəyirdim".




Qurbanov Almaniya səfərinin ilk gününü faydalı hesab edib: "Bayer"in məşqində iştirak etdim. Hazırlıq prosesindən sonra Alonso ilə görüşümüz oldu. Onun futbolçu və məşqçi karyerası, çalışdığı məşqçilər Pep Qvardiola, Karlo Ançelotti, Joze Mourinyo və digərləri ilə bağlı söhbət etdik. Futbolçu olduğu illərdə fərqli oyun fəlsəfələri olan mütəxəssislərlə çalışan Alonso mənə onlar haqda geniş məlumat verdi. Həqiqətən çox faydalı görüş alındı".

# Xavi: "Rəqabət aparmasaq, getməli olacağam"

***"Barselona"nın baş məşqçisi Xavi İspaniya kubokunun 1/4 finalında "Atletik"ə məğlubiyyətdən (2:4) sonra klubdakı gələcəyindən danışıb.***

QOL.az xəbər verir ki, mütəxəssis bu mövsümün sonunda klubdan ayrıla biləcəyini də istisna etməyib: "Mövsümün sonuna qədər yüksək səviyyədə rəqabət aparmasaq, mən getməli olacağam. Harada olduğumu bilirəm, bu, TOP klubdur ."Barselona"da titullar qazanmaq lazımdır, əks halda təhlükə altında olacaqsınız. Əminəm ki, bu komanda böyük potensiala malikdir və ən yaxşı gənc oyunçulardan ibarətdir".



Xatırladaq ki, "Barselona" yanvarın 14-də finalda "Real"a uduzaraq İspaniya Superkubokunu da əldən verib. Kataloniya təmsilçisi hazırda La Liqanın turnir cədvəlində 44 xalla 3-cüdür. Komanda lider "Jirona"dan 8 xal geri qalır.

Qeyd edək ki, Xavi 2021-ci ilin noyabr ayından "Barselona"ya rəhbərlik edir. Onun klubla müqaviləsi 2025-ci ilin yayına qədərdir.

# "Bavariya"nın futbolçusu bir neçə həftə oynamayacaq

***"Bavariya"nın futbolçusu Dayo Upamekano zədələnib.***

25 yaşlı müdafiəçi Bundesliqanın 13-cü turunda təxri əsalınan və ötən gecə keçirilən "Union"la matçda (1:0) sıradan çıxıb.

"Bavariya"nın baş məşqçisi Tomas Tuhel görüşdən sonra açıqlamasında fransalı futbolçunun bir neçə həftə yaşıl meydanlardan kənarda qalacağını bildirib: "Upamekanonun sağalması günlər deyil, həftələr tələb edəcək".

Qeyd edək ki, Dayo Upamekano bu mövsüm "Bavariya"nın heyətində 22 matça çıxıb və 1 qol vurub.



# AFFA azarkeşlərinə görə "Neftçi"ni cərimələdi



***AFFA İntizam Komitəsi Premyer Liqanın XIX turunda keçirilən "Sabah" - "Neftçi" oyunu ilə bağlı qərarlarını açıqlayıb.***

"Unikal" xəbər verir ki, komitə hər iki klubu cərimələyib.

Səfər matçında 4 futbolçusu sarı vərəqə alan "Neftçi" 700 manat cərimə olunub. Azarkeşlərinin pirotexniki vasitədən istifadə etməsi "ağ-qaralar"ı daha 1500 manat ziyana salıb.

"Sabah" isə görüş bitdikdən sonra meydançaya kənar şəxslərin daxil olması ucbatından 800 manat ödəməli olacaq.

Qeyd edək ki, "Bank Respublika Arena"da keçirilən oyun 0:0 hesabı ilə yekunlaşıb.

# "Qarabağ"ın rəqibində ciddi itki

***"Qarabağ"ın Avropa Liqasının pley-off mərhələsindəki rəqibi "Braqa" ciddi itki ilə üzləşib.***



"Unikal" xəbər verir ki, Portuqaliya təmsilçisinin aparıcı futbolçusu Bruma sağ dizindən zədə alıb.

Yanvarın 29-da əməliyyat olunacaq hücumameyilli yarımmüdafiəçinin 4-6 həftə yaşıl meydanlardan kənarda qalacağı bildirilib.

Qeyd edək ki, "Qarabağ" "Braqa"ya qarşı ilk oyununu fevralın 15-də səfərdə, cavab matçını isə bir həftə sonra Bakıda keçirəcək.

# Qara Qarayev məşqlərə qoşuldu



***Azərbaycan Premyer Liqasının 20-ci turu çərçivəsində "Qəbələ" ilə keçiriləcək matçdan əvvəl "Neftçi"də zədələlərin son durumu məlum olub.***

"Unikal" xəbər verir ki, bir müddətdir zədəli olan Qara Qarayev komanda ilə məşqləri keçirdiyi halda, Azər Əliyev və Reziuan Mirzov fərdi və qismən komanda ilə hazırlıqlarını davam etdirir.

Müalicə prosesini davam etdirən Kilan Lebon fərdi məşqlərlə kifayətlənir. Ataa Caber isə Asiya kubokunun oyunları ilə bağlı milli komandasının toplanışındadır.

# Afrika Millətlər Kubokunda "pley-off"a çıxan bütün komandalar

***Afrika Millətlər Kubokunun qrup mərhələsinin son oyunları keçirilib.***



"Unikal" xəbər verir ki, ötən gün baş tutan oyunlar nəticəsində pley-off mərhələsinin bütün iştirakçıları müəyyənləşib.

Kamerun, Seneqal, Anqola, Mavritaniya, Qvineya, Burkina-Faso, Ekvatorial Qvineya, Nigeriya, Kabo-Verde, Mərakeş, Mali, Cənubi Afrika, Misir, Mərakeş, Konqo Demokratik Respublikası və Fil Dişi Sahili komandaları növbəti mərhələyə yüksəlib.

Yanvarın 27-də pley-off mərhələsi başlayacaq.

1/8 final mərhələsinin cütlükləri aşağıdakı kimidir:

Nigeriya - Kamerun
Anqola - Namibiya
Kabo-Verde - Mavritaniya
Mərakeş - Cənubi Afrika
Mali - Burkina Faso
Seneqal - Fil Dişi Sahili
Misir - Konqo Demokratik Respublikası
Ekvatorial Qvineya - Qvineya

# "Yuventus"dan "Atletiko"ya



***"Yuventus"un hücumçusu Moyze Kin karyerasını İspaniya La Liqasında davam etdirəcək.***

QOL.az xəbər verir ki, bu barədə jurnalist Fabrizio Romano məlumat verib .

23 yaşlı futbolçu icarə əsasında "Atletiko"ya keçəcək. "Yuventus" artıq Madrid klubu ilə transfer barədə razılığa gəlib. "Atletiko" "qoca sinoriya"ya 500 min avro ödəyəcək.

Moyze Kin bu mövsüm "Yuventus"un heyətində A seriyasında 12 matça çıxıb.